

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 230 (21.640)

3 dekabr 2016-cı il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 2-də "Qafqazda dini tolerantlıq ənənələri və Azərbaycanın multikulturalizm modeli" mövzusunda beynəlxalq konfransda iştirak edən Qafqaz Xalqları Ali Dini Şurasının üzvlərini qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 2-də Zərdab rayonuna səfərə gediblər.

Dövlətimizin başçısı və xanımı xalqımızın ümummilli lideri Heydər Əliyevin Zərdab şəhərinin mərkəzi meydanındakı abidəsi önünə gül dəstələri qoyublar.

Zərdab Rayon İcra Hakimiyyətinin başçısı Lütvəli Babayev Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya son illərdə rayonda görülən işlər, həyata keçirilən layihələr barədə məlumat verib.

* * *

Dekabrın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Zərdab Rayon Mərkəzi Xəstəxanasının əsaslı təmirdən sonra istifadəyə verilən yeni binasında yaradılan şəraitlə tanış olublar.



## Dövlət Təhlükəsizliyi Xidmətinin Culfa Rayon Şöbəsinin inzibati binası istifadəyə verilmişdir





Muxtar respublikada dövlət təhlükəsizliyinin qorunması istiqamətində ardıcıl tədbirlər görülür. Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin maddi-texniki bazası ilbəil gücləndirilir, əməkdaşlar üçün müasir iş şəraiti yaradılır.

Dekabrın 2-də Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Culfa Rayon Şöbəsinin inzibati binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət olan binadakı iş otaqları lazımi avadanlıqlar və texniki vasitələrlə təmin olunmuşdur. Binanın ikinci mərtəbəsində 4 xidməti yaşayış mənzili istifadəyə verilmiş, ailələr üçün hərtərəfli məişət şəraiti yaradılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bina ilə tanışlıqdan sonra kollektivlə görüşmüş, Dövlət Təhlükəsizliyi Xidmətinin Culfa Rayon Şöbəsinin inzibati binasında lazımi şəraitin yaradıldığını bildirərək demişdir: Bu gün muxtar respublikada Dövlət Təhlükəsizliyi Xidməti, xidmətin idarə və şöbələri müasir binalarda fəaliyyət göstərir. Əməkdaşlar üçün hərtərəfli iş şəraiti yaradılmışdır. Ölkəmizdə bu sahə üzrə qəbul olunmuş normativ hüquqi aktların və qanunların icrasını təmin etmək, dövlət təhlükəsizliyini qorumaq və səmərəli fəaliyyət göstərmək kollektivin qarşısında duran əsas vəzifələrdir. Mövcud qanunvericilik bazası, yaradılan şərait və fəaliyyət üçün istiqamətlərin müəyyənləşdirilməsi bu vəzifələrin uğurla yerinə yetirilməsinə imkan verəcəkdir.

Ali Məclisin Sədri kollektivə qarşıya qoyulan vəzifələrin icrasında uğurlar arzulamışdır.

Əməkdaşlar yaradılan şəraitə görə minnətdarlıq etmişlər.

Binanın həyətində də abadlıq işləri aparılmış, yaşıllıq salınmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Soyuducu anbarlar məhsul bolluğu yaradır

*Yerli istehsalın inkişaf etdirilməsi ölkənin iqtisadi tərəqqisinə müsbət təsir etməklə daxili bazarın qorunmasında, xarici valyuta axınının qarşısının alınmasında və idxaldan asılılığın azaldılmasında mühüm rol oynayır. Məhz bu amillər nəzərə alınaraq muxtar respublika iqtisadiyyatının bütün sahələrində dövlət texniki, maliyyə və innovasiya dəstəyi ilə yeni-yeni istehsal və xidmət sahələri istifadəyə verilir. Bunun nəticəsində də özəl sektorun, xüsusən də kənd təsərrüfatının daha da inkişafına səbəb olacaq layihələr reallaşdırılır. Dövlətin maliyyə dəstəyi ilə yaradılan belə istehsal və xidmət sahələri əhalinin keyfiyyətli yerli məhsullarla təmin edilməsinə şərait yaradır.*

Bu sırada kənd təsərrüfatı məhsullarının uzun müddətə saxlanması üçün soyuducu anbar komplekslərini də qeyd etmək lazımdır. Soyuducu anbarların yaradılması həm məhsulları qış dövründə istehlakçıya çatdırmağa, həm də ixracı daha da artırmağa imkan verir. Eyni zamanda bu anbarların hər biri yeni iş yerlərinin açılması ilə bərabər, əhalinin meyvə-tərəvəz məhsullarına olan tələbatının ödənilməsində mühüm rola malikdir. Kənd təsərrüfatının inkişaf etdirilməsi məqsədilə həyata keçirilən bu kimi tədbirlərin nəticəsidir ki, hazırda muxtar respublika əhalisinin meyvə-tərəvəz məhsullarına olan tələbatı, əsasən, yerli istehsal hesabına ödənilir.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyindən bildirilib ki, sahibkarlığın inkişafına göstərilən dəstək, verilən güzəştli kreditlər və şəxsi vəsaitlər hesabına bu gün muxtar respublikamızda soyuducu və digər təyinatlı ərzaq məhsullarının saxlanması üçün anbarların ümumi tutumu 15395 tona çatdırılıb. Hazırda Naxçıvanda dövlət maliyyə dəstəyi ilə yaradılmış, bilavasitə kənd təsərrüfatı istehsalçılarının fəaliyyətinin stimullaşdırılması məqsədilə tələbatdan artıq kənd təsərrüfatı məhsullarının tədarükünün həyata keçirilməsi üçün tutumu 6000 ton olan ixtisaslaşdırılmış soyuducu anbar və sahibkarlıq subyektlərinin öz istehsal məhsullarının saxlanması üzrə tutumu 9395 ton olan ixtisaslaşdırılmış soyuducu və digər təyinatlı ərzaq məhsulları üçün anbarlar mövcuddur.

2016-cı ildə əhalinin mövsümi kənd təsərrüfatı məhsullarına olan tələbatının ödənilməsi, qiymətlərin tənzimlənməsi və idxaldan asılılığın azaldılması məqsədilə belə məhsullar soyuducu anbarlara tədarük edilib. 1 iyun 2016-cı il tarixdən 28 noyabr 2016-cı il tarixə soyuducu anbarlara kənd təsərrüfatı üzrə ixtisaslaşmış sahibkarların fəaliyyətinin stimullaşdırılması məqsədilə tələbatdan artıq istehsal edilmiş cəmi 4224,07 ton məhsul tədarük olunub. Bunun da 3067,29 tonu kartof, 631,67 tonu soğan, 220,0 tonu ərik, 280,6 tonu alma, 0,13 tonu armud, 0,17 tonu şaftalı, 0,06 tonu üzüm, 10,22 tonu kələm, 13,93 tonu sarımsaq məhsuludur. Tədarük edilmiş meyvə-tərəvəz məhsullarından 1446,26 tonunun satışı həyata keçirilib.

İqtisadiyyatın əsas prioritet sahələrindən hesab olunan aqrar sektorun inkişafı ilə bağlı cari ilin ötən dövrü ərzində soyuducu anbarların yaradılması istiqamətində 1 layihənin maliyyələşdirilməsinə 50 min manat vəsait ayrılıb. Ümumilikdə isə 2000-ci ildən 2016-cı ilin ötən dövründək Sahibkarlığa Kömək Fondu tərəfindən 11 layihənin maliyyələşdirilməsinə 4.297.840 manat dövlət maliyyə dəstəyi göstərilib. Fondun güzəştli kreditləri hesabına bu layihələrin reallaşdırılması yeni iş yerlərinin açılmasına imkan yaradıb.

Naxçıvanda bu kimi məsələlərin vacibliyinin lazımınca qiymətləndirilməsinin nəticəsidir ki, soyuducu anbarların yaradılması sahəsində müsbət nəticələr əldə olunmuş və bu istiqamətdə işlər uğurla davam etdirilir.

*İqtisadiyyatın mühüm inkişaf göstəricilərindən biri olan xarici ticarət əlaqələri Naxçıvan Muxtar Respublikasının müasir inkişaf mərhələsində diqqət mərkəzində saxlanılır. Xüsusən son dövrlər "Made in Azerbaijan" brendinin formalaşdırılması və onun dünyaya tanıdılması istiqamətində Naxçıvandan dünya ölkələrinə ixrac olunan mal və xidmətlərin həcminin artırılmasına da ciddi fikir verilir.*

## Xarici ticarət əlaqələri genişlənir

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyindən aldığımız məlumata görə, hazırda muxtar respublikada fəaliyyət istiqamətlərinə görə 51 müəssisə ixrac qabiliyyətinə malikdir. Həmin müəssisələr tərəfindən 60 növdə məhsulun istehsalı həyata keçirilir. Naxçıvandan ixrac olunan məhsullar, əsasən, yerli xammala əsaslanır. Bunlar arasında mineral sular, təbii duz, emal olunmuş ət və meyvə məhsulları, qazlı aromatlaşdırılmış və spirtli içkilər, meyvə şirələri, sement, gips, gips lövhələr, məsaməli beton məmulatları, metal, mərmər və travertin daş məmulatları, xam dəri, mebel və sair məhsullar vardır. Naxçıvandan ixrac olunan məhsullar, əsasən, Türkiyə, İran, Rusiya, Gürcüstan, Ukrayna, Litva, Birləşmiş Ərəb Əmirlikləri və digər ölkələrə göndərilir. Rəqəmlərə gəldikdə, ümumilikdə, 2016-cı ilin 10 ayı ərzində muxtar respublikadan məhsul ixracının həcmi 325 milyon 800 min ABŞ dollarını ötüb ki, bu da son bir il ərzində 1,3 faiz artım deməkdir. Aparılan məqsədyönlü siyasətin nəticəsində muxtar respublikada idxaldan asılılığın da azaldılması təmin olunub. Belə ki, bəhs olunan dövrdə muxtar respublikada idxalın həcmi 34,5 faiz azalaraq, təqribən, 33 milyon 187 min ABŞ dolları həcmində olub. Genişləndirilən xarici ticarət əlaqələri ödəmə balansında müsbət saldonun yaranmasına imkan verib. Belə ki, bu dövrdə muxtar respublikada aparılan ixrac və idxal əməliyyatları arasında 292 milyon 613 min 100 Amerika Birləşmiş Ştatları dolları həcmində müsbət saldo yaranıb.

**Xəbərlər şöbəsi**

*Məhdud fiziki imkanlı şəxslərin hüquqlarının qorunmasına, onların sosial müdafiəsinin təmin olunmasına ictimaiyyətin diqqətini cəlb etmək məqsədilə Birləşmiş Millətlər Təşkilatının 14 oktyabr 1992-ci il tarixli qərarı ilə dekabrın 3-ü Beynəlxalq Əlillər Günü kimi qeyd olunur.*

***3 dekabr Beynəlxalq Əlillər Günüdür***

# Naxçıvanda məhdud fiziki imkanlı şəxslərə davamlı dövlət qayğısı göstərilir

Azərbaycanda məhdud fiziki imkanlı şəxslərin sosial müdafiəsi ilə bağlı həyata keçirilən tədbirlər ötən əsrin 70-ci illərindən başlayaraq daha geniş vüsət almışdır. Ümummilli liderimiz Heydər Əliyev əlillərin cəmiyyətə inteqrasiyasını, onların reabilitasiyası və sosial müdafiəsinin təmin olunmasını daim diqqət mərkəzində saxlamış, əlilliyin qarşısının alınması istiqamətində mühüm tədbirlər görülmüşdür. Ulu öndər bu kateqoriyadan olan insanların problemlərinə böyük həssaslıqla yanaşmış, əlillərin, müharibə veteranlarının, şəhid ailələrinin mənzil şəraiti yaxşılaşdırılmışdır.

Ümummilli liderimizin ideyalarını bütün sahələrdə uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə bu gün ölkəmizdə sosial qayğıya ehtiyacı olan vətəndaşların, o cümlədən məhdud fiziki imkanlı şəxslərin sosial müdafiəsinin gücləndirilməsi, onların cəmiyyətə inteqrasiyası istiqamətində ardıcıl tədbirlər görülür. Cəmiyyətin ümumi inkişaf prosesindən irəli gələn yeniləşmə, təkmilləşmə tendensiyasına müvafiq olaraq bu kateqoriyadan olan şəxslərin sosial təminatını daha da yaxşılaşdıran, habelə ayrı-ayrı sosial məsələlərin həllinə yeni hüquqi imkanlar yaradan qanunlar qəbul edilir, eyni zamanda onların maddi təminatını gücləndirmək məqsədilə yeni təqaüd və müavinətlər təsis edilir, pensiyaların, təqaüd və sosial müavinətlərin məbləği mütəmadi artırılır.

Muxtar respublikada sosial-iqtisadi sahədə həyata keçirilən davamlı islahatlar sakinlərin həyat şəraitinin yaxşılaşmasına, rifahının yüksəlməsinə imkanlar yaradır. Müvafiq kateqoriyadan olan məhdud fiziki imkanlı şəxslərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, onların minik avtomobilləri və texniki-bərpa vasitələri ilə təmin edilməsi, təhsil almaları, məşğulluq imkanlarının yüksəldilməsi, istedad və bacarıqlarının inkişaf etdirilməsi, habelə asudə vaxtlarının səmərəli təşkili üçün hərtərəfli şərait yaradılır. Bu ilin ötən dövründə məhdud fiziki imkanlı şəxslərin tibbi reabilitasiyası məqsədilə Naxçıvan Əlillərin Bərpa Mərkəzində 244 nəfərin, Naxçıvan Uşaq Bərpa Mərkəzində 315 uşağın müalicəsi təşkil edilmiş, məhdud fiziki imkanlı 11 nəfər, o cümlədən sağlamlıq imkanları məhdud 5 uşaq valideynlərinin müşayiəti ilə Türkiyə Respublikasına müalicəyə göndərilmiş, 308 nəfər isə respublikanın müxtəlif sanatoriyalarına göndərişlərlə təmin edilmişdir. Bundan başqa, qeyd olunan dövr ərzində sağlamlıq imkanları məhdud 205 şəxsə müxtəlif texniki reabilitasiya vasitələri verilmiş, 201 vətəndaşa səyyar protez-ortopedik xidmət göstərilmiş, 61 nəfərin sosial məişət şəraitinin yaxşılaşmasına, 47 nəfərin isə respublika daxilində müalicəsinə köməklik göstərilmişdir. Hazırda sağlamlıq imkanları məhdud 71 şəxsə evlərində sosial məişət xidməti göstərilir, onların zəruri sosial problemlərinin həlli və vaxtaşırı tibbi müayinədən keçmələri təmin edilir. Qeyd olunan dövr ərzində müharibə əlillərinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərin davamı olaraq 6 Azərbaycan Vətən Müharibəsi iştirakçısı və 4 şəhid ailəsinə yeni mənzillər və 2 Azərbaycan Vətən Müharibəsi iştirakçısına "Naz-Lifan 320" markalı minik avtomobilləri təqdim edilmişdir.



Naxçıvan Əlillərin Bərpa Mərkəzi



Naxçıvan Uşaq Bərpa Mərkəzi

Məhdud fiziki imkanlı şəxslərin məşğulluğunun təmin edilməsi də diqqət mərkəzindədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası məhdud fiziki imkanlı şəxslərin sosial müdafiəsinin gücləndirilməsinə əsaslı zəmin yaradır. Qeyd olunan dövr ərzində əmək bazarının tələblərinə uyğun təşkil olunan müvafiq peşə kurslarına sağlamlıq imkanları məhdud 44 nəfər cəlb edilmiş, bu kateqoriyadan olan 86 şəxs münasib işlə təmin edilmişdir. Sağlamlıq imkanları məhdud şəxslərin özünüməşğulluqlarının təmin edilməsi məqsədilə 39 şəxs sosial xarakterli haqqıödənilən ictimai işlərə cəlb olunmuşdur.



Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzi

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 11 yanvar 2016-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın icrası bu kateqoriyadan olan uşaqların təhsil almasına, onların reabilitasiyasına, cəmiyyətə daha fəal inteqrasiyasına yeni imkanlar yaradır. Hazırda məktəbəqədər təhsil müəssisələrinə sağlamlıq imkanları məhdud 77 uşaq cəlb olunmuş, ümumtəhsil məktəblərində 895 uşaq, Distant Tədris Mərkəzində isə 23 uşaq təhsil alır. Tədrisə cəlb edilmiş aztəminatlı sağlamlıq imkanları məhdud 273 şagird məktəbli geyimi və ləvazimatları, eləcə də qış geyimi ilə təmin olunmuşdur.

Sağlamlıq imkanları məhdud uşaqların sosial reabilitasiyasının gücləndirilməsi məqsədilə həyata keçirilən tədbirlər davam etdirilir. Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində psixoloji dəstək xidməti, diqqət zəifliyi olan və hiperaktiv uşaqlar üçün təlim-bərpa otağı yaradılmışdır. Bununla yanaşı, uşaqlarda kiçik motorikanın inkişaf etdirilməsi, zehni inkişaflarının daha da yaxşılaşdırılması, habelə sərbəst şəkildə özünəqulluq vərdişlərinin aşılanması məqsədilə Uşaq Bərpa Mərkəzində əmək terapiyası otağı yaradılmışdır.

Məhdud fiziki imkanlı şəxslərin istedadlarının üzə çıxarılması, yaradıcılıq qabiliyyətlərinin inkişafı məqsədilə də tədbirlər təşkil olunur. Belə ki, onlar arasında şeir, bilik, mütaliə, brayl yazı, rəsm və əl işləri üzrə müsabiqələr təşkil edilir. Bununla yanaşı, idmanın boccia, stolüstü tennis, voleybol, futzal, yüngül atletika növləri üzrə yarışlar keçirilir. Bu il Naxçıvan şəhərində Paralimpiya İdman Festivalı təşkil edilmişdir. Festivalda 106 məşqçi və idmançı iştirak etmişdir. Yaradılan hərtərəfli şərait, göstərilən qayğı paralimpiyaçılarımızın respublika səviyyəli yarışlarda uğurla çıxış etmələrinə zəmin yaradır. Cari ilin noyabr ayında Sumqayıt Paralimpiya İdman Kompleksində keçirilən II uşaq paralimpiya idman oyunlarında muxtar respublikanı təmsil edən idmançılar boccia idman növü üzrə yarışlarda müvəffəqiyyətlə çıxış ediblər.

Məhdud fiziki imkanlı şəxslərin əl işlərinin satışına da köməklik göstərilir, sərgilərdə onların əl işləri nümayiş olunur, sərgi-müsabiqədə fərqlənənlərin ümumrespublika yaradıcılıq sərgi-müsabiqəsində iştirakı təmin edilir. Sağlamlıq imkanları məhdud ifaçılardan ibarət "İnam" musiqi qrupu mütəmadi olaraq bayram tədbirlərində, eyni zamanda əsgərlər qarşısında konsert proqramı ilə çıxış edir.

***Yay mövsümündə məhdud fiziki imkanlı 180 şəxsin Ağbulaq İstirahət Mərkəzində istirahətləri təşkil edilmişdir. Əlamətdar günlərdə məhdud fiziki imkanlı şəxslərin iştirakı ilə silsilə tədbirlərin həyata keçirilməsi ənənə halını alıbdır. Bu istiqamətdə həyata keçirilən tədbirlərin davamı olaraq Beynəlxalq Əlillər Günü münasibətilə Naxçıvan şəhərində və rayonlarda məhdud fiziki imkanlı şəxslərlə görüşlər keçirilmiş və ümumilikdə, 1000 nəfərə sovqat verilmişdir.***

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

# Əhalinin sağlamlığının qorunması diqqət mərkəzindədir

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi əhalinin sağlamlığının qorunması və tibbi xidmətin səviyyəsinin yüksəldilməsi istiqamətində fəaliyyətini noyabr ayında da davam etdirib, səhiyyə sisteminin müasir standartlara uyğunlaşdırılması, ixtisaslı kadrların hazırlanması, yoluxucu xəstəliklərin profilaktikası həmişəki kimi diqqət mərkəzində saxlanılıb.***

Muxtar respublikada aparılan genişmiqyaslı quruculuq işləri çərçivəsində ötən ay Naxçıvan şəhər Bulqan və Şərur rayon Arbatan kənd feldşer-mama məntəqələri əhalinin istifadəsinə verilib.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi İnnovasiya və Təchizat Mərkəzindən dializ olunan xroniki böyrək çatışmazlığı olan xəstələr üçün dializ materialları, dərman preparatları, Azərbaycan Respublikası Milli Onkologiya Mərkəzindən Naxçıvan Muxtar Respublikası Onkoloji Mərkəzinə kimyəvi terapiya aparmaq üçün dərman preparatları, Azərbaycan Respublikası Elmi Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutundan Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanserinə reaktiv və dərman preparatları, Azərbaycan Respublikası QİÇS-lə Mübarizə Mərkəzi və Qlobal Fond tərəfindən Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzinin QİÇS-lə mübarizə şöbəsinə HİV, hepatit B, C və sifilis testləri, reaktiv və tibbi materiallar gətirilib.

Ölkəmizin paytaxtında fəaliyyət göstərən yüksəkixtisaslı həkim briqadalarının dəvət olunaraq muxtar respublikamıza gətirilməsi, aztəminatlı ailələrdən olan xəstələrin başqa ünvanlara üz tutmadan müayinə və cərrahi əməliyyatlarının təşkili davam etdirilib. Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Mərkəzi Neftçilər Xəstəxanasının Ürək və damar xəstəlikləri şöbəsinin 3 nəfərdən ibarət heyəti Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin Kardiocərrahiyyə şöbəsilə birgə 13 nəfərdə açıq ürək əməliyyatı, 32 nəfərdə müayinələr aparıb.

Naxçıvan Muxtar Respublikası səhiyyə müəssisələri tərəfindən noyabr ayında 50-55 yaşlı əhalinin müayinələri başa çatdırılıb, qeydiyyatda olan 23 min 168 nəfərdən 15 min 877 nəfəri tibbi müayinədən keçirilib, 2 min 444 nəfər dispanser qeydiyyatına götürülüb. Həmçinin 6454 nəfərdə xolesterin müayinəsi aparılıb.

Naxçıvan Muxtar Respublikası Onkoloji Mərkəzin həkimləri tərəfindən mədəniyyət işçiləri arasında süd vəzinin profilaktik müayinəsi davam etdirilib, noyabr ayında 154 nəfər qadında süd vəzinin müayinəsi aparılıb.

Təhsil müəssisələrində şagirdlərin pediatr, oftalmoloq, stomatoloq, ortoped tərəfindən kütləvi müayinəsi davam etdirilib. Noyabr ayında 16 min 924 şagirddə müayinə aparılıb, 1519 nəfər dispanser qeydiyyatına alınıb.

Universitet və kollec tələbələrinin kütləvi profilaktik müayinəsi zamanı 1750 tələbə müayinədən keçirilib, xəstə aşkar olunmayıb.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi ilə yanaşı, Naxçıvan Muxtar Respublika Xəstəxanası, Diaqnostika-Müalicə Mərkəzi, Kardioloji Mərkəz, Mərkəzi Uşaq Xəstəxanası, dispanserlər, rayon mərkəzi xəstəxanaları nəzdində həkim briqadalarının müasir tibbi avadanlıq, cihaz və aparatlar, laboratoriya ilə təchiz olunaraq yerlərə gedişi qrafik əsasında tənzimlənib, müayinələrin kütləviliyinə nail olunub.

Muxtar respublika ərazisində yoluxucu xəstəliklərə görə epidemioloji vəziyyət sabit olub, xüsusi təhlükəli infeksiyalar qeydə alınmayıb. Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin iş planına uyğun olaraq kəskin respirator infeksion xəstəliklərinin profilaktikası məqsədilə noyabr ayının əvvəlindən Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzi, onun rayon təşkilatları tərəfindən əhalinin sıx məskunlaşdığı yerlərdə dezinfeksiya işlərinə başlanılıb.

Muxtar respublikamızın səhiyyə sistemində kadrların bilik və bacarığının artırılması vacib məsələ kimi diqqət mərkəzində saxlanılıb. Noyabrda 9 nəfər həkim Türkiyə Respublikası Ankara Qazi Universitetində müxtəlif müddətlərə kurs keçmələri üçün göndərilib.

Tibb müəssisələrində çalışan 150 nəfər orta tibb işçisinin oktyabr-noyabr aylarında Naxçıvan Tibb Kollecində təkmilləşdirmə kursu keçməsi nəzərdə tutulmuşdu. Kollecdə bu il oktyabrın 24-dən başlanan peyvənd və sterilizasiya kursu noyabrda başa çatıb. Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin göndərişi ilə bu kursda Naxçıvan şəhəri ilə yanaşı, rayon tibb müəssisələrində çalışan 90 tibb bacısı iştirak edib.

Naxçıvan Muxtar Respublika Xəstəxanasında "Stomatologiyanın aktual problemləri" mövzusunda Azərbaycan İmplantoloq İctimai Birliyi ilə birgə konfrans keçirilib. Konfransda stomatoloqlar, Naxçıvan Dövlət Universitetinin və Tibb Kollecinin tələbələri iştirak ediblər. Naxçıvan Muxtar Respublika Xəstəxanasında "Cərrahiyyənin aktual problemləri" mövzusunda da konfrans keçirilib.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi noyabr ayı ərzində 33 nəfəri Bakı şəhər Şağan qəsəbəsində yerləşən Əlillərin Müalicə Pansionatına, 48 nəfəri Mərdəkan qəsəbəsində yerləşən Müharibə və Əmək Veteranları Pansionatına, 18 nəfəri müxtəlif xəstəxanalara müalicəyə göndərib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

Eynəli bəy Sultanov – 150

Göy qurşağı

№ 10 "Şərq qapısı"nın ədəbiyyat əlavəsi 3 dekabr 2016-cı il

# Azərbaycanın ictimai fikir tarixində özünəməxsus yer tutmuş görkəmli maarifçilərdən biri – *Eynəli bəy Sultanov*

**Publisistika sahəsində səmərəli fəaliyyət göstərən Eynəli bəy Sultanov bədii yaradıcılıqla da məşğul olmuş, ictimai fikrə və maarifçi mühitə təsir göstərən hekayə və dram əsərləri, şeirlər yazmış, tərcümələr etmişdir. O, ilk dəfə olaraq Naxçıvanda şifahi xalq ədəbiyyatı nümunələrini toplamış, xalqımızın milli dəyərlərinin tədqiqatçısı və təbliğatçısı olmuşdur.**

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Eynəli bəy Sultanovun 150 illik yubileyinin keçirilməsi haqqında" 15 fevral 2016-cı il tarixli Sərəncamından*



***Əsr yarım bundan əvvəl cəhalətin və dini fanatizmin hökm sürdüyü Naxçıvanda böyük bir ziyalı ordusu ortaya çıxmağa başladı. Belə ziyalılar dəstəsinin öncüllərindən biri də Eynəli bəy Sultanov idi.***

1866-cı il may ayının 5-də Naxçıvan şəhərində anadan olan Eynəli bəy Sultanov ilk təhsilini Naxçıvan qəza məktəbində almış, daha sonra 1880-1886-cı illərdə İrəvan Kişi Gimnaziyasında təhsilini davam etdirmişdir.

Yeniyetmə vaxtlarından dünya ədəbiyyatına, digər dilləri öyrənməyə böyük maraq göstərən Eynəli bəy Sultanov gimnaziyada təhsil alarkən rus, fransız və latın dillərini öyrənmiş, bu dillər vasitəsilə Avropa ədəbiyyatını və Qərb maarifçiliyini, rus yazıçılarını orijinaldan mütaliə edərək dərindən öyrənə bilmişdir. Bu cür fitri istedadı, dərsləri dərindən öyrənməsi və tez bir zamanda çətin fənlərə yiyələnməsi oxuduğu gimnaziyadakı müəllimlərinin də diqqətindən yayınmamışdır. Məhz bu cür keyfiyyətləri – yüksək hazırlığı, mənəvi yetkinliyi, ədəbi istedadı nəzərə alınaraq 1886-cı ildə Eynəli bəy Sultanov yeddinci sinifdən gimnaziyadan çıxarılmış, gimnaziyanın pedaqoji şurasının qərarı ilə ona şəhər ibtidai məktəblərində müəllimlik etmək hüququ verilmişdir.

Eynəli bəy Sultanov hələ gimnaziyada oxuduğu dövrlərdən doğulduğu Naxçıvan şəhərində mədəni tədbirlərin çox az olmasından narahatlıq keçirmiş və beləliklə də, maarifçi mühitin formalaşmasında yaxından iştirak etməyə çalışmışdır. Bunun nəticəsi olaraq, 1882-1883-cü illərdə Naxçıvanda "Ziyalı məclisi", "Müsəlman dram incəsənəti cəmiyyəti" kimi ədəbi-mədəni məsələlərin müzakirə edildiyi, yeni ideyaların həyata keçirilməsinə çalışan mərkəzlər yaratmağa nail olmuşdur. Bu mərkəzlərdə dövrünün qabaqcıl fikirli ziyalılarını öz ətrafında toplamışdır. Beləliklə də, ziyalı həmfikir yoldaşları ilə xalqın maariflənməsi, aydın düşüncəyə sahib olması uğrunda müxtəlif tədbirlərin həyata keçirilməsinə başlamışdır. Bunun məntiqi nəticəsi olaraq 1883-cü ildə əvvəlcə öz evində, sonralar daha böyük səhnələrdə, daha çox insanların qarşısında müxtəlif tamaşalar göstərməklə Naxçıvan teatrının yaranmasında yaxından iştirak etmiş, hətta bir çox hallarda həmin tamaşalara rejissorluq etmiş, eyni zamanda aktyor kimi fəaliyyət göstərməkdən də çəkinməmişdir.

Eynəli bəy Sultanovun Naxçıvan şəhərindəki maarifçilik xidmətləri təkcə teatr tamaşaları ilə məhdudlaşmamışdır. Özünün yaratdığı "Ziyalı məclisi"nə üzv olan həmfikir dostlarının köməyi ilə bir sıra əməli tədbirlərin həyata keçirilməsinə də çalışmışdır. Belə ki, ilk dəfə olaraq Naxçıvanda kitabxana açdırmağa nail olmuş, bir müddət sonra isə dostu Əsəd ağa Kəngərlinski ilə birlikdə Naxçıvanda ilk mətbəənin əsasını qoymuş, bu mətbəədə müxtəlif bəyannamələr çap etdirərək xalqı arasında mütaliə mədəniyyətinin formalaşmasına səy göstərmişdir.

Xalqın maariflənməsinə çalışması, onun aydın düşüncəyə sahib olması üçün əlindən gələni əsirgəməməsi o dövrün fanatik dindarlarının, həmçinin xalqı soyub-talayan iri mülkədarların maraqları ilə üst-üstə düşmürdü. Bu məqsədlə də onlar Eynəli bəy Sultanov başda olmaqla ziyalılar dəstəsini kafir, dindar, casus, dəli adlandıraraq xalqın gözündən salırdılar. Məhz bu təbliğatın nəticəsi olaraq təqib olunmağa başlanan Eynəli bəy Sultanov Naxçıvandan ayrılaraq Qarsa köçmüşdür. 1886-1891-ci illərdə qısa fasilələrlə Naxçıvanda yaşayan Eynəli bəy Sultanov, əsasən, Qars Şəhər Şurasında mühüm işlər üzrə məmur vəzifəsində çalışmışdır. Buna baxmayaraq, o, Naxçıvan ədəbi-mədəni mühiti ilə də əlaqəni kəsməmiş, bu cür tədbirlərdə yaxından iştirak etmişdir. Xüsusilə Naxçıvan teatrının daha da inkişaf etməsinə, repertuarında yerli və xarici müəlliflərin əsərlərinin geniş yer tutmasına köməklik göstərmişdir.

XIX əsrin son onilliyində Azərbaycanın İrəvan şəhərində fəaliyyətini davam etdirən Eynəli bəy Sultanov 1892-ci ildən İrəvan Quberniya İdarəsində birinci dərəcəli dəftərxana xidmətçisi, 1893-cü ildən İrəvan Dairə Məhkəməsində tərcüməçi, 1894-cü ildən məhkəmə katibinin köməkçisi vəzifələrində işləmiş, hətta Dairə Məhkəməsində mülki işlər üzrə üçüncü stolun rəisi vəzifəsində qədər yüksəlmişdir.

Məhkəmə orqanlarında işləməklə hüquq sahəsində böyük təcrübə qazanan Eynəli bəy Sultanov prokurorluq orqanlarına işə keçirilmiş, 1897-1903-cü illərdə Dairə Məhkəməsi prokurorunun köməkçisi vəzifəsində işləmişdir. Vəzifəsi etibarı ilə rusdilli dövlət orqanlarında hüquq sahəsində fəaliyyət göstərən Eynəli bəy Sultanov səlahiyyəti imkan verdiyi qədər doğma xalqının ayrı-ayrı nümayəndələrinin hüquqlarını qorumuş, onların haqlarını müdafiə etməyə çalışmışdır. Elə bu cəhətləri nəzərə alınaraq ona 1906-cı ildən etibarən İrəvan Dairə Məhkəməsi prokurorunun Naxçıvan üzrə köməkçisi vəzifəsini də yerinə yetirmək tapşırılmışdır.

Xalq arasında böyük nüfuz qazanan, ictimai çəkisi kifayət qədər artan E.Sultanov 1907-ci ildə İrəvan Dövlət Dumasına deputat seçilmiş, ictimai xadim kimi də böyük şöhrətə yiyələnmişdir. Onu da qeyd etməyə ehtiyac var ki, Eynəli bəy Sultanovun millət vəkili seçilməsində, deputat kimi fəaliyyətində uzun illər çalışdığı hüquq-mühafizə orqanlarında qazandığı təcrübəsi də mühüm rol oynamışdır.

Eynəli bəy Sultanov mətbuatla da daim əlaqə saxlamış, onu narahat edən mövzularda dövrünün qəzet və jurnallarında çıxış etmişdir. 1891-ci ildən "Novoye obozreniye" qəzetində ardıcıl olaraq ədəbi-publisist yazılarla fəal iştirak edən Eynəli bəy Sultanov 1905-1908-ci illərdə "Kaspi" qəzetinin İrəvan və Naxçıvan üzrə xüsusi müxbiri vəzifəsində də çalışmışdır.

Eynəli bəy Sultanov bəy tayfasına mənsub olsa da, heç vaxt özünü bəy kimi aparmamış, əksinə, daim kəndlilərin, kasıbların yanında olmuş, onların dərdini öz dərdi bilmişdir. Elə buna görə də irsən ona çatan Göynük, Sürməlik və Sirab kəndlərindəki torpaqlarını təmənnasız olaraq kəndlilərə bağışlamışdır.

1908-ci ildə Eynəli bəy Sultanov Tiflisə köçür, bu zamandan başlayaraq onun həyatında və yaradıcılığında Tiflis mərhələsinin əsası qoyulur. Tiflisdə yaşadığı illərdə o, pedaqoji fəaliyyətlə də məşğul olmuş, 1912-1916-cı illərdə Tiflis Birinci Qadın Gimnaziyasında rus dili dərslərini tədris etmiş, 1917-ci ildən etibarən isə ana dili – Azərbaycan dili müəllimi kimi çalışmış, hətta bir müddət sinif nəzarətçisi işləmişdir.

Tiflisə köçdükdən sonra burada bir çox sahədə məhsuldar və səmərəli fəaliyyət göstərmişdir. Belə ki, "Zakavkazye" qəzetinin "Müsəlman həyatı" şöbəsinin müdiri olmuş, "Qruziyar", "Zakafkazskaya reç", "Kafkaz" və digər rusdilli mətbuat orqanları ilə əməkdaşlıq etmiş, 1921-1923-cü illərdə "Kavkazskaya kommuna" qəzetinin redaktoru olmuş, 1924-1926-cı illərdə "İşıq yolu" qəzetinin məsul katibi vəzifəsində işləmişdir.

Həmin mətbuat orqanlarında bir çox mühüm məsələlərlə bağlı yazılar yazan Eynəli bəy Sultanov həm də Azərbaycan şifahi xalq ədəbiyyatının fədakar təbliğatçısı rolunu oynamışdır. Yeri gəlmişkən onu da qeyd etməliyik ki, Eynəli bəy Sultanov həm də bir folklorşünas kimi şöhrət qazanmışdır. Xüsusi olaraq vurğulamağa ehtiyac var ki, görkəmli maarifçi ziyalı 1887-1891-ci illərdə Naxçıvan və İrəvanı kəndbəkənd gəzərək Azərbaycan şifahi xalq ədəbiyyatı nümunələrini toplamışdır. Və Tiflisə köçdükdən sonra topladığı folklor nümunələrini rus dilinə tərcümə edərək müxtəlif qəzetlərdə nəşr etdirmişdir.

Eynəli bəy Sultanovun digər bir məziyyəti isə əlifba islahatçısı olması idi. Ötən əsrin əvvəllərində azərbaycanlı ziyalılar tərəfindən gündəmə gətirilən latın qrafikalı əlifbaya keçid məsələsində də o, öncül mövqedə dayanan maarifçilərdən biri olmuşdur. Hətta latın qrafikalı əlifbaya keçid sahəsində iyirmi ilə yaxın ardıcıl fəaliyyət göstərmiş, 1924-cü ildə Yeni Əlifba Komitəsi Tiflis şöbəsinin katibi vəzifəsini daşımışdır. 1926-cı ildə yeni əlifbanın ən yaxşı təbliğatçısı seçilmiş, bu münasibətlə "Seyidlər" hekayəsi ayrıca kitab şəklində dərc olunmuşdur. Onu da qeyd edək ki, Eynəli bəy Sultanov 1930-cu ildə məhz bu komitənin tərcüməçisi vəzifəsindən təqaüdə çıxmışdır.

Tiflisdə yaşadığı dövrdə o, Azərbaycan teatr hərəkatının təşəkkülündə də mühüm xidmətlər göstərmiş, 1909-cu ildə "Zubalov adına xalq evi" yanında Azərbaycan dram şöbəsinin əsas təsisçilərindən biri olmuş, 1911-ci ildə Gürcü Əyanlar Teatrında təşkil olunan Azərbaycan Teatr Cəmiyyətinin bürosuna üzv seçilmişdir.

Eynəli bəy Sultanov həm də realist bir yazıçı idi. O, XIX əsrin 80-ci illərindən ədəbi fəaliyyətə başlamış, ilk qələm təcrübələrindən biri olan "Azərbaycan qızı" ("Tatarka") pyesi 80-ci illərdə Naxçıvanda dəfələrlə tamaşaya qoyulmuşdur. Hətta sağlığında ilk kitabı da məhz "Tatarka" adı ilə nəşr olunan həmin pyesi idi. Belə ki, həmin kitab 1904-cü ildə İrəvanda "Edison" nəşriyyatında nəşr edilmişdir. Bu pyesdən əlavə, onun dramaturgiya yaradıcılığı sahəsində qələmə aldığı bir çox əsərləri də vardır. Bunlardan "Atalıq", "Səhhət verirsən, vermirsən", "Əmələ mayısı" kimi əsərlərin adını çəkmək olar.

Eynəli bəy Sultanovun bədii yaradıcılığı pyesləri ilə məhdudlaşmır. O, realist üslubda yazılmış onlarla hekayənin, bir neçə şeirin də müəllifidir.

Bu cəhətləri ilə yanaşı, Eynəli bəy Sultanovun müxtəlif dillərdən tərcümələrini də unutmaq olmaz. O, fars dilindən Azərbaycan və rus dilinə, rus dilindən Azərbaycan dilinə, Azərbaycan dilindən rus dilinə tərcümələrin də müəllifidir.

Yazıçı-publisist, tərcüməçi, folklorşünas, bədii və teatr tənqidçisi, hüquqşünas, ictimai xadim kimi tanınan Eynəli bəy Sultanov 1935-ci ildə Tiflis şəhərində vəfat etmişdir.

Vəfatından 30 ilə yaxın bir müddətdə, demək olar ki, unudulan, xatırlanmayan E.Sultanov bir də 1960-cı illərdə həmin nəsildən olan, Naxçıvan şəhərində yaşayan orta məktəb müəllimi İzzət Maqsudov tərəfindən tədqiq edilərək ictimaiyyətə təqdim olunmuşdur. Həmin dövrdən keçən 60 ilə yaxın bir müddətdə elmi ictimaiyyət tərəfindən layiqli qiymətini almayan ədib haqqında, sadəcə, iki elmi dissertasiya yazılaraq müdafiə edilmişdir. Belə ki, 1964-cü ildə İzzət Maqsudov "Eynəli bəy Sultanovun həyat və yaradıcılığı", 1991-ci ildə isə İradə Əsədova "Eynəli bəy Sultanovun yaradıcılıq yolu" adlı elmi işlərini uğurla müdafiə etmişlər.

Müstəqillik dövründə isə görkəmli ziyalı haqqında ilk dəfə tədqiqatlar son 10 ildə tərəfimizdən həyata keçirilmişdir. Bütün bunlar da Eynəli bəy Sultanovun lazımi qədər tanınmasına və tanıdılmasına kifayət etməmişdir.

Bu mənada, Eynəli bəy Sultanovun xidmətlərinin, yaradıcılığının geniş ictimaiyyətə çatdırılmasında onun haqqında imzalanmış ilk dövlət sənədinin misilsiz rolu olmuşdur. Həmin dövlət sənədi isə 15 fevral 2016-cı il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədri tərəfindən imzalanmış "Eynəli bəy Sultanovun 150 illik yubileyinin keçirilməsi haqqında" Sərəncamdır.

Böyük əhəmiyyət daşıyan sərəncamda Azərbaycan ədəbiyyatı, mətbuat və teatrı, habelə ictimai fikir tarixində mühüm yer tutan Eynəli bəy Sultanovun 150 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında geniş qeyd edilməsi qərara alınmışdır.

Həmin sərəncamla təsdiq edilən Tədbirlər Planına əsasən, muxtar respublikanın ali təhsil müəssisələri və elm ocaqlarının birgə təşkilatçılığı ilə ədibin həyat və yaradıcılığına həsr olunmuş elmi konfrans keçirilmiş, təhsil və mədəniyyət müəssisələrində Eynəli bəy Sultanovla bağlı sərgi və guşələr, oxucu konfransları təşkil olunmuş, "Naxçıvan" ictimai-siyasi, ədəbi-bədii, elmi-publisistik jurnalının 34-cü nömrəsi, bütövlükdə, maarifçi ziyalıya həsr edilmiş, Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi tərəfindən Eynəli bəy Sultanovun 150 illiyinə həsr olunmuş poçt markası buraxılmış, Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsi "Onun həyat amalı" adlı sənədli film çəkmişdir. Eyni zamanda fədakar maarifçinin fəaliyyətinin müxtəlif sahələrinə həsr olunmuş tematik verilişlər hazırlanmış, muxtar respublikanın müxtəlif qəzetlərində materiallar hazırlanmış, keçirilən tədbirlər işıqlandırılmışdır.

Bunlarla yanaşı, bu ilin aprel ayında tərəfimizdən "Eynəli bəy Sultanovun folklorşünaslıq irsi" dissertasiyası Bakıda, AMEA-nın Folklor İnstitutunun dissertasiya şurasında müdafiəsi olmuş, ədibin 33 hekayəsinin yer aldığı "Eynəli bəy Sultanov: Hekayələr" kitabı nəşr etdirilmişdir. Həmçinin yuxarıda da qeyd etdiyimiz kimi, indiyədək görkəmli ədibin həyat və yaradıcılığı haqqında dissertasiya müdafiə etmiş iki alimin, "İzzət Maqsudov: Eynəli bəy Sultanovun həyat və yaradıcılığı" və "İradə Əsədova: Eynəli bəy Sultanovun yaradıcılıq yolu" monoqrafiyaları nəşrə hazırlanaraq çap olunmuşdur.

Yuxarıda sadalanan bu tədbirlərin həyata keçirilməsində "Eynəli bəy Sultanovun 150 illik yubileyinin keçirilməsi haqqında" Sərəncamın böyük rolu və təsiri olmuşdur. Bu sərəncamla nəinki məhdud elmi-ədəbi dairələrdə, eyni zamanda geniş ictimaiyyət, sadə vətəndaşlar arasında da Eynəli bəy Sultanov haqqında geniş məlumatlar əxz edilmiş, fikir formalaşmışdır.

***Naxçıvanın yetişdirdiyi böyük ziyalılardan biri olan Eynəli bəy Sultanovun xatirəsi bundan sonra əziz tutulacaq, qiymətləndiriləcək və hər kəs onu sevərək oxuyacaq, öyrənəcək, təbliğ edəcəkdir.***

**Elxan YURDOĞLU**
*şair-publisist*

# Eynəli bəy Sultanov arxiv sənədlərində

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 15 fevral tarixli Sərəncamı görkəmli yazıçı və maarifpərvər publisist Eynəli bəy Sultanovun həyatı və fəaliyyətinin yenidən tədqiq olunmasına xidmət edən mühüm dövlət sənədidir.***



*Eynəli bəy Sultanov (ikinci cərgədə soldan üçüncü). 1928-ci il, Tiflis*

Bu sərəncamdan sonra Naxçıvan Muxtar Respublikası Dövlət Arxivində mühafizə olunan XIX əsrin sonu və XX əsrin əvvəllərinə aid sənədlərin araşdırılmasına başlanılmış və aydın olmuşdur ki, Eynəli bəy Çölü bəy oğlu Sultanov 1837-ci ildə Naxçıvan qəzasında açılmış və 1870-ci ildən Naxçıvan şəhər məktəbi adlandırılmış məktəbdə ibtidai təhsil almışdır.

Naxçıvan şəhər üçsinifli ibtidai məktəbi bitirən Eynəli bəy Sultanov 1880-1886-cı illərdə İrəvan Kişi Gimnaziyasında təhsilini davam etdirmiş və 1886-cı ildə gimnaziyanın yeddinci sinfindən sonra təhsilini dayandırmışdır. Yüksək hazırlığı, mənəvi yetkinliyi, ədəbi istedadı nəzərə alınaraq gimnaziyanın pedaqoji şurasının qərarı ilə ona şəhər ibtidai məktəbində müəllimlik etmək hüququ verilmişdir.

E.Sultanov çox çətin bir şəraitdə müəllimlik etməyə başlamış və yerli fanatiklərin təqiblərinə rast gəlmişdir. O, mollaxanalarda dərs deyən bəzi savadsız müəllimlərə müraciət edərək yazırdı: "Sən fırıldaqçıya cəsarətlə ərz edirəm ki, azacıq belə bilmədiyin sənəti bir dəfəlik at! Ey zavallı, sən bu müqəddəs işə öz cüzi bilik ehtiyatınla başladığını düşünürsənmi? Bəs nə üçün maarifimizi ləngitməklə davam edirsən? Bu meydanı tərk edib get! Öz sevimli alverinlə məşğul ol!"

Görkəmli maarifçi "Azərbaycan ziyalıları haqqında" adlı məqaləsində mollaların dərs üsulunu kəskin şəkildə tənqid edir və yazırdı: "Xalqa bu ziyalılar heç bir şey verməmişdir. Artıq onların ən çətin vaxtları çatmışdır. Onlar bilmirlər ki, onların ucbatından xalq çox şey itirmişdir".

Eynəli bəy Sultanov maarif xadimi kimi istəyirdi ki, məktəbdə dərs deyən müəllimlər həqiqi bilik sahibi olsunlar. Onun fikrincə, belə olmazsa, "maarif məsələsindən söhbət açmaq əbəs olar".

O, əhalinin savadsızlığını aradan qaldırmaq üçün İrəvan Quberniyası Xalq Məktəbləri direktoruna böyüklər üçün axşam məktəbinin açılmasına dair çox müraciətlər etmişdir. Bunlardan biri Eynəli bəyin 25 aprel 1906-cı ildə Naxçıvan şəhər müəllimləri Abbas Qədimov və Aliyə Abbasova ilə birgə İrəvan Quberniyası Xalq Məktəbləri direktoruna yazdıqları xahişnamədir. Xahişnamədə yazılır: "Naxçıvan müsəlman yerli əhalisinə ehtiyac olduqları köməyi göstərmək məqsədilə zati-alinizdən xahiş etməklə şərəf duyuruq ki, Naxçıvan şəhərində böyüklər üçün axşam məktəbi açılsın və orada rus və tatar (Azərbaycan – F.C.) dili, hesab və ibtidai elmlər tatar dilində öyrənilsin".

Naxçıvanda zəhmətkeş kütlənin maarif və mədəniyyətə meyli qüvvətləndiyi bir zamanda çar hökuməti və onun yerlərdəki nümayəndələri məktəb açmaq, xalqı maarifləndirmək işinə açıqcasına mane olurdular. Məhz bu səbəbdən də E.Sultanovun bu xahişləri yerinə yetirilmir.

Bəla burasında idi ki, bu dövrdə hətta maarif idarələrinə rəhbərlik edən bəzi məsləksiz çar məmurları da şüurlu surətdə müxtəlif bəhanələrlə ayrı-ayrı şəhərlərdə yerli ziyalıların təşəbbüsü ilə açılması nəzərdə tutulan məktəblərə mane olurdular. Onlar xalq maarifinə son dərəcə az vəsait buraxır, ana dilində olan məktəbləri təqib edərək bağlayır, yüksək təhsil haqqı müəyyən edir və bununla da, xalq kütlələrinin təhsil almasına yol vermirdilər. Təkcə bir faktı göstərmək kifayətdir ki, 1912-ci ildə Naxçıvan şəhərində gimnaziya açılması nəzərdə tutulmuşsa da, sonradan bu məktəbin açılmasına Qafqaz Tədris Dairəsi icazə verməmişdir.

Eynəli bəy Sultanovun bu məsələ ilə əlaqədar olaraq yazdığı məqalələrdən aydın olur ki, Qafqaz Tədris Dairəsi ilə Naxçıvan şəhər başçısı arasındakı məktublaşmadan heç bir nəticə hasil olmamışdır.



*Eynəli bəy Sultanovun evi – 1884-cü il*

Qafqaz Tədris Dairəsi hamisinin şəxsən imzaladığı və Naxçıvan şəhər başçısına göndərdiyi 2 may tarixli teleqramdan məlum olur ki, tədris dairəsinin 1908-ci il 31 dekabr tarixli jurnalına müvafiq olaraq Naxçıvanda gimnaziya üçün bina tikmək və avadanlıq almaqdan ötrü naxçıvanlılar əvvəlcə 5 min manat, sonra isə hər ildə iki min manat vəsait versə, gimnaziya binasının tikilməsi üçün torpaq sahəsi ayırsa, 1912-ci ildə Naxçıvan şəhərində 6 sinifli bir kiçik gimnaziya açılması qərarlaşdırıla bilər.

1912-ci il 29 may tarixli teleqramda isə qeyd edilir ki, avadanlıq almaq üçün toplanan pul Naxçıvan şəhər xəzinəsinə verilməli və qəbz təhsil dairəsinə göndərilməlidir. Bu teleqram mübadiləsindən sonra yerli ziyalıların köməyi ilə gimnaziya üçün torpaq sahəsi ayrılır, əhalidən pul toplamaq üçün komissiya yaradılır. Naxçıvan əhalisi böyük ruh yüksəkliyi ilə məktəb üçün 5 min əvəzinə, 9 min manat pul verir. Komissiya həm də gimnaziya üçün ayrılmış torpaq sahəsini əhalinin qüvvəsi ilə hasarladır.

Lakin naxçıvanlıların sevinci uzun sürmür. İrticanın hər sahədə hökm sürdüyü bir zamanda burada gimnaziya açılmasına icazə verilmir. Bu isə şəhər ziyalılarına və birinci növbədə, E.Sultanova çox ağır təsir edir. Tiflisdə yaşayarkən o, bu işlə ciddi surətdə maraqlanır, bir neçə dəfə təhsil dairəsinə gedir. Nəticə hasil olmadıqda mətbuatda çıxış edir. Görkəmli maarifçi bu iş üçün müqəssir olanları xalq məhkəməsinə verməyi təklif edərək yazırdı: "Bu, tədris rəislərinə yaraşmayan hərəkətdir. Bu, bizim ən yaxşı səylərimizi və ümidlərimizi lağa qoymaq deməkdir".

Onu da qeyd edək ki, araşdırılan arxiv sənədlərində Eynəli bəy Sultanovun mənsub olduğu nəsil Qullarağasıyev familiyası daşımışdır. Adından da göründüyü kimi bu familiya onların ağa, bəy nəslinə mənsub olduğunu göstərir. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivində mühafizə olunan bəy komissiyasının işlərindəki sənədlərin biri bunu bir daha təsdiq edir.

Qəhrəman bəyin ailəsi istisna olmaqla, ümumi əcdadı Pir Murad Sultandan götürülən, 9 ailədən ibarət olan bu nəsil 1859-cu ildə kameral siyahı üzrə "Bəylər" sırasına yazılmışdır. Bu ailə şəcərəsinə görə, Sultan Eynəli xanın üç oğlu olmuşdur. Seçilmiş komissiya üzvləri bu nəslin mövcud tərkibini təsdiqləyərək yekdilliklə göstərmişdilər ki, fars hökuməti dövründə "bəy" sözündən istifadə edirdilər, "sultan" adından (vəzifəsindən, rütbəsindən) yox.

E.Sultanovla bağlı maraqlı sənədlərdən biri də onun Naxçıvan şəhər başçısı (starost) seçkisində namizəd kimi iştirakıdır.

Seçki ilə əlaqədar 23 iyun 1907-ci ildə Naxçıvan şəhər müvəkkillərinin iclasında sədrlik edən müvəkkil Mirzə Nəsrulla Əmirov iclası açaraq 12 nəfər şəhər müvəkkilinə tapşırır ki, 1905-ci ildən dörd illiyə şəhər başçısı və onun köməkçisi seçkilərinə başlanılsın. Şəhər başçısı vəzifəsinə Bəhram xan Naxçıvanski və Eynəli bəy Sultanovun, köməkçi vəzifəsinə isə Novruz ağa Kəngərlinski, Mirzə Əliqulu Novruzov, Əyyub ağa Kəngərlinski, Nikolay Deykarxanov, Baban Məlik Babaxanov və Heydərqulu bəy Muradhasilovun namizədliyi qapalı səsverməyə buraxılmışdır. O vaxtın seçkisinin nəticələrinə görə, Bəhram xan Naxçıvanski 7 ağ və 6 qara şar, Eynəli bəy Sultanov isə 6 ağ və 7 qara şar qazanmışdır. Beləliklə, şəhər başçısı vəzifəsinə Bəhram xan Naxçıvanski seçilmişdir.

1908-ci ildə E.Sultanov Tiflisə gedir. Ömrünün sonunadək orada yaşayan E.Sultanov peşəkar yazıçı, publisist, tərcüməçi və ictimai xadim kimi fəaliyyət göstərir. O, Tiflisdə daha çox publisistik fəaliyyətlə məşğul olmuşdur.

Publisist E.Sultanovun "Müsəlmanların həyatı və dövri mətbuatı" başlıqlı bir sıra məqaləsi ayrı-ayrı qəzetlərdə dərc edilmişdir.

Eynəli bəy Sultanovun publisistikasında Naxçıvan mövzusu da mühüm yer tutur. Onun "Naxçıvan məktubları" silsilə məqalələrində mədəni tərəqqi, milli oyanış və maarifçilik məsələləri qələmə alınmışdır. Həmin silsiləyə daxil olan "Naxçıvan xəbərləri", "Naxçıvandan nə danışırlar", "Dövlət dumasına seçkilər", "Naxçıvan kişi gimnaziyası haqqında", "Naxçıvan publikası", "Naxçıvanlıların Naxçıvan haqqında fikirləri", "Qafqazda müsəlman mətbuatı", "Müsəlmanların həyatı və dövri mətbuatı", "Rusiyada müsəlman məktəbi" və sair kimi məqalələrində əsarət və köləlikdən xilas olmağa, ictimai-mədəni tərəqqiyə ardıcıl bir çağırış vardır. Bu, Azərbaycan publisistikası tarixində silsilə məktub formasında meydana çıxan ilk nümunədir.

*Eynəli bəy Sultanovun adlarını çəkdiyimiz məqalələrinin əsas ruhunu maarifçilik ideyalarının təbliği təşkil edir. Bu yazılardan Naxçıvanın bütün sahələrinə aid zəngin məlumatlar da almaq mümkündür. Bir sözlə, E.Sultanov təkcə Naxçıvanla bağlı yazıları ilə yox, bədii əsərləri, tərcümələri, publisistikası və pedaqoji fəaliyyəti ilə də Azərbaycanın ictimai, bədii, pedaqoji fikir tarixində xüsusi yeri olan şəxsiyyətlərdən biridir.*

**Fəxrəddin CƏFƏROV**
***tarix üzrə elmlər doktoru***

## Onun xidmətləri Naxçıvanda qadınlar hərəkatının formalaşmasına zəmin yaratmışdır

*Naxçıvanda maarifçilik hərəkatı öz məzmununa görə iki mərhələyə ayrılır. Məşhur ictimai xadim E.Sultanovun adı ilə bağlı I mərhələ (XIX əsrin 80-ci illəri) ilk dünyəvi məktəblərin açılması, müəllim kadrların hazırlanması və teatrın yaranması ilə əlamətdar idisə, XIX əsrin 90-cı illərini əhatə edən bu hərəkatın II mərhələsində maarifçi qüvvələrin bütöv dəstəsi meydana gəlmiş, milli-mədəni problemlər müzakirə olunmağa başlanmışdı.*

Heç şübhəsiz, qadın azadlığı və bərabərliyi barəsində mütərəqqi fikirlər mətbuat vasitəsi ilə qabaqcıl ziyalıların fəaliyyəti sayəsində Azərbaycanın bölgələrində, o cümlədən Naxçıvanda da getdikcə daha çox yayılmağa başlayırdı.

Bununla belə imperiyanın ucqarı sayılan, maarif və mədəniyyətin inkişafında kifayət qədər maneələrin mövcud olduğu Naxçıvan mühitində qadın azadlığı məsələsi tamamilə başqa səciyyə daşıyırdı. Göstərilən dövrdə Naxçıvan ziyalılarını düşündürən əsas məsələ ictimai şüurda qadına münasibətdə mövcud olan stereotipləri dəyişdirməkdən, qadının cəmiyyətdə layiqli yer tutmasından ibarət idi. Bu məqsədə çatmağın, qadınları cəhalətdən qurtarmağın yeganə yolunu onlar qadınların maarifləndirilməsində görürdülər.

XIX əsrin II yarısında Naxçıvanda fəaliyyət göstərmiş görkəmli maarifpərvər ziyalı Eynəli bəy Sultanov qadın azadlığı və bərabərliyi məsələsini ortaya qoyub, onu daim müdafiə edən ilk mütərəqqi şəxsiyyətlərdən biri idi.

Eynəli bəy "Molla Nəsrəddin" ruhunda, yüksək vətəndaşlıq cəsarəti ilə yazdığı məqalələrdə ictimai bərabərsizliyə, qadın əsarətinə, hakim siniflərin özbaşınalığına qarşı çıxmış, bir Azərbaycan ziyalısı kimi öz etiraz səsini ucaltmışdır. O, müəllim işləməklə yanaşı, bədii əsərlər də yazmış, Tiflis rus mətbuatında "Dəhşətli intiqam", "Xan və xan", "Seyidlər", "Acı masqara" və sair hekayələrini, "Tatarka" pyesini nəşr etdirmişdir. "Tatarka" pyesi ayrıca kitabça şəklində 1882-ci ildə Tiflisdə rus dilində çap olunmuşdur. Pyes Azərbaycan dilinə tərcümə edilərkən, baş qəhrəmanı Sənəm olduğu üçün əsəri "Sənəm" adlandırmaq daha münasib olmuşdur. Pyes 1984-cü ildə "Pyeslər" kitabında "Sənəm" adı ilə nəşr edilmişdir. Bəzi tədqiqatçılar bu pyesin və E.Sultanovun başqa bədii əsərlərinin rus dilində yazılması və nəşr olunması səbəbini yerli çar hakimlərinin tələbi və təkidi ilə bağlayırdılar. Lakin bu, o qədər də həqiqətə uyğun deyil, çünki Eynəli bəy Sultanov 1920-ci ilə qədər bütün əsərlərini, demək olar ki, rus dilində nəşr etdirmişdi. Onun "Qadın", "Sahib və əşya" kimi məqalələrindən bəlli olur ki, Naxçıvan ziyalıları ədibin bu sahədəki təşəbbüsünü müdafiə etmiş və yüksək qiymətləndirmişlər.

"Tatar qızı" qadın azadlığı mövzusuna həsr edilmiş ilk dram əsərlərimizdən biri olduğu üçün maraqlıdır. Əsərdəki Sənəm rolunu müəllif özü ifa etmişdir. Eynəli Sultanovun N.B.Vəzirovun "Müsibəti-Fəxrəddin" əsərində Hürü nənə, "Hacı Qənbər" əsərində Dilbər xanım, Ə.Haqverdiyevin "Pəri-cadu" əsərində Şamama-Cadu və sairə qadın rollarında çıxış etməsi fanatik müsəlmanlar tərəfindən lağa qoyulurdu.

E.Sultanov isə bunlara fikir verməyərək deyirdi ki, zaman gələr, yazıq müsəlmanlar başa düşərlər ki, mənə yox, öz faciəli tarixlərinə gülürlərmiş.

Həmin dövrdə Naxçıvanda ictimai həyata ilk qədəmlərini qoyan C.Məmmədquluzadə öz xatirələrində yazırdı: "O vaxtlar arvadların əsarətdə qalmaq söhbətləri təzə-təzə meydana atılmaq istəyirdi və bir dəfə arvadları müdafiə edən sözləri Eynəli yoldaşımızın vasitəsilə məşhur arvad azadlığı tərəfdarı Con Stüart Milin kitabında gördüm". 1884-cü ildə Azərbaycan dramaturgiyası tarixində ilk dəfə olaraq E.Sultanov qadın azadlığı mövzusunda yazdığı "Tatarka" adlı komediyasını Naxçıvanda tamaşaya qoymuşdu. Naxçıvan kimi dini mövhumatın güclü olduğu bir bölgədə qadınların ağıl və fərasətlərini təqdir etmək mühüm ictimai hadisə idi. Onun publisistik fəaliyyətində də qadın azadlığı problemi mühüm yer tuturdu.

Sənədlərdən aydın olur ki, "Tatar qızı" müvəffəqiyyət qazanmış, tamaşaçılar onu rəğbətlə qarşılamışlar. Bunun əsas səbəbi komediyanın dramaturji cəhətdən kamilliyində deyil, daha çox əsərdə qoyulan məsələnin dövr üçün son dərəcə səciyyəvi olmasında idi.

E.Sultanovun bu istiqamətdəki fəaliyyəti 1905-1907-ci illər rus inqilabından sonra daha da güclənmiş və o, qadınların hüquqlarını daha qətiyyətlə müdafiə etməyə başlamışdır. O yazırdı: "Mən hər cür təcavüzkarlığa, hər cür təzyiqə və cinsindən asılı olmayaraq, insan azadlığının məhdudiyyətinə nifrət edirəm. Müsəlman qadınlarının hüquq bərabərliyini açıqcasına təbliğ etdiyim üçün məscid minbərlərindən mənə lənət yağdırırdılar".

Beləliklə, Naxçıvanın qabaqcıl ziyalı və ictimai xadimlərinin qadınların hüquq və azadlıqları, onların savadlanması, maariflənməsi uğrunda apardıqları uzunmüddətli, gərgin mübarizə get-gedə öz bəhrəsini verir, naxçıvanlı qadınlar ictimai həyata, təhsilə, mədəniyyətə doğru ilk kövrək addımlarını atırdılar. Bu dövrdə baş verən ictimai-siyasi hadisələr, qadınların maarifləndirilməsi, mədəni və ictimai həyata atılması məqsədilə yuxarıda göstərilən tədbirlər sonralar Naxçıvanda qadınlar hərəkatının formalaşması üçün sosial-siyasi və mənəvi zəmin yaratmışdır.

**Sevinc ABBASOVA**
***tarix üzrə fəlsəfə doktoru***

## Xırmanda

Uşaqlar öküzləri vəllərdən açıb dincə buraxmışdılar. Özləri də heşanı çevirib üstünə təzə dərz dağıtmışdılar. Mən də Həsən dayı ilə çardağın kölgəsində oturub gap edirdik.

Həsən dayı çubuğunu sümürüb gördü ki, çubuq keçib, xoruldayır. Çubuğun külünü yerə silkib çubuğu təzədən doldurdu, sonra çaxmaq çəkib çubuğunu yandırdı.

Çubuğu damağına salıb Həsən dayı başladı:

– Ərz eyləyim qulluğuna, qadasın aldığım, hərçənd ki, deyiblər: keçən günə gün çatmaz, calasan günü-günə. Amma yenə də deyirəm ki, keçən günlər bir gün deyildi ki, onlara adam hayıfsılansın. Bu barədə ancaq aşıq yaxşı bir söz deyib, bax:

*Uca təpələrə dağ demək olmaz,*
*Keçən günümüzə ağ demək olmaz.*
*İxtiyarsız igidə sağ demək olmaz,*
*Rüstəm təki pəhləvani-nər olar…*

Bir az nəfəsini dərib Həsən dayı çubuğunu bir də dərindən sümürdü, keçdi mətləbə:

– Görürəm ki, mənim sözüm sənə qəribə gəlir, təəccüb eləmə, maralım, sən hələ cavansan, dünyada bir o qədər yaşamamısan, yaxşı-yamana da o qədər bələd deyilsən, amma keçmişdə biz çəkən günləri istəmirəm ki, düşmənlərim də çəksinlər.

Həsən dayı yenə sözünün arasını kəsdi, mən də bu fürsəti qənimət bilib dedim:

– Ay Həsən dayı, görünür ki, çox ürəyi yanıqlısan. Mən elə bilirdim ki, sən də hamı qocalar kimi köhnə zamanı tərif edənlərdənsən. Amma...

– Nə deyirsən, ay pir olmuş? Şüürinə qadam gəlsin ki, keçən zamanın tərəfdarı ola... O adam görünür ki, ömründə heç istiot dadmayıb. Vəssalam ki, nə başını ağrıdım? Əgər mənə bütün dünyanı versələr, mən yenə də razı olmaram keçən zamana bir də geri dönsün. Azını-çoxunu bilmirəm. Sən elə bizim Hacı Eyvaz kəndini götür. Heç bilirsənmi, qadasın aldığım, keçmişlərdə biz bu kəndin rəncbərlərini mülkədarın və onların dostu ləçəlnikin (naçalnikin), pristavların əllərindən nələr çəkmişik?

Bir gün olmazdı ki, ağalar, ya onların dərğaları bizdən hökumətə şikayət etməsinlər... Şikayət edən kimi də pristav ağa atının quyruğunu düyüb kəndimizə hücum edirdi. Qlavan (qlava), yüzbaşı, katta, kəndxuda, qazaq, yasovul hamısı pristavın başına toplaşırdılar, divan qurulurdu.

Nə divan? ...Uxxx... Zülm ərşə dayanırdı. Kəndlilərin dərisini soyurdular, kəndi də çapıb-talayırdılar... İndi, ay ağrın mənə gəlsin, mən heç demirəm, sən de, belə günlərə də gün demək olar? Odur ki, aşiqin haqqı var desin – "Keçən günümüzə ağ demək olmaz".

Həsən dayı sakit olub çubuğunu fısqırdırdı, daha dinib-danışmırdı. Gözlərini yerə dikib mənim üzümə baxırdı.

Bir neçə vaxt sükutda qalıb mən dedim:

– Ay Həsən dayı, sən elə bilmə ki, mənim keçən günlərin zülmündən bilmərrə xəbərim yoxdur... Doğrudur, o zülmlərə mən şahid olmamışam, amma o barədə çox oxumuşam və eşitmişəm. Yaxşı deyirsən, keçmişdə zülm ərşə dayanmışdı. Amma mən istəmirəm ki, sənin köhnə yaraların təzələnsin... Keçənə güzəşt deyərlər. Bir elə şeydən danış ki, ürəyin açılsın, mən də səni bu halda qoyub buradan getməyim.

Həsən dayı başını yuxarı qaldırıb diqqətlə mənim üzümə baxdı, baxdı, baxdı, gülümsədi və sonra çubuğunu ağzından çıxarıb dedi:

– Sənin sözün yerə düşüncə qoy düşmənin gözü kor olsun, ağrın alım, sən belə mənim fikrimə qalırsan, qoy sənə bir gülməli şey nağıl eyləyim, sənin də bir az ürəyin açılsın. Dərdli söylənən olar və hərənin bir dərdi var, heç kəsə deməz, ağlar. Bunları da bil ki, sonradan düşünsən ki, ürəyimdə olan yaralarım ölənə kimi sağalmayacaqdır.

Həsən dayı çubuğunun tütününü təzələyib gülməli hekayəsini başladı:

– Günlərin bir günündə, qadasın aldığım, ağaların dərğaları kəndimizin əhalisini çox təngə gətirib cana doydurmuşdular. İş o yerə çatmışdı ki, başlamışdılar bizim arvad-uşağımıza sataşmağa... Özün yaxşı bilirsən ki, namus-qeyrəti itə atmışlar, it yeməmişdir... Qeyrət bizə üz verdi. Kəndin bir neçə cavanları bir gün bir yerə yığışıb, sözümüzü bir elədik ki, hərəmiz əlimizə bir dəyənək alıb, ağaların dərğalarını döyədöyə kənddən çıxardaq. Kəndin ağsaqqalları bizim bu əməlimizi gördülərsə də bir söz demədilər. Biz daha da cürətlənib dərğaların evlərini talan elədik... Onlar arvad-uşaqları ilə birgə bizim əlimizdən qurtarıb kənddən birbaş qaçdılar. O gün keçdi, sabahısı günü gördük ki, budur mülkədarlarımız özü (o vaxt ağamız tünbətün Cəfər xan idi. Bir piyaniskanın biri, ay onu görüm qara torpaq altına dərin getsin), ləçəlnik, pristav və bir dəstə qazaq kəndimizə gəldilər... Daha nə deyim, 100 adamdan artıq ağsaqqallarımızı və qarasaqqalımızı o günü qazaqlara döydürdülər. Kənddə üç gün qalıb, qazaqlar kənddə daha bir islahat qoymadılar. Üç gündən sonra 14 adamımızı tutub qol-qola bağladılar və qazaqların qabağına qatıb apardılar. Mən də onların içində...

Hekayənin bu yerində mən Həsən dayının sözünü kəsib dedim:

– Yavaş, Həsən dayı, bir yavaş, axı sən mənə söz vermişdin ki, gülməli nağıl hekayə edəsən. Məgər gülməli hekayə belə olur?

Görünür ki, sən də ayı kimisən. Deyirlər ki, ayının 72 oyunu bir armudun başındadır. Darılma, maralım, darılma. Bir az səbir elə, nağılın gülməli yeri qabaqdadır.

Mən daha dinməyib qulaq asırdım. Həsən dayı çubuğunu fısqırdıb söylədi:

– Bəli, bizdən 14 adam tutub pay-piyada qazaq atlarının döşündə şəhərə sürüdülər. Orada hamımızı qalaya saldılar. Şəhərdə ilyarımdan artıq qalacaydıq. On dördümüzü də bir qəmərə (kamera) qatmışdılar, bilmirdik ki, gün haradan çıxıb, harada batır. Gündə yediyimiz soldat baysumatı ilə bir-iki qaşıq duru şorba, geydiyimiz bir tuman-köynək, üstündən soldat şineli, başımızda keçə papaq, bitin, sirkənin içində. Bu cür yaşayırdıq. Amma nə eyləyəsən bu ilyarım qala bizim nəzərimizdə bir gün kimi gəldi getdi. Doğrudur ki, əvvəl bizə çox ağır gəlirdi. Amma elə ki, öyrəndik, daha o qədər sıxılmırdıq, çünki qalada günlərin hamısı bir-birinə oxşayır. Ona görə də çox tez gəlib keçir.

İçimizdə Əli adlı 18 yaşında bir oğlan var idi. Biz ona Alyoş deyirdik. Bu Alyoş bir qəribə oğlan idi. Üzügülər, dilli, zirək, zarafatcıl, dünya bunun vecinə gəlmirdi. Qəmərədə bizi lap təngə gətirmişdi. O qədər nadinc idi ki, yetənə yetir, yetməyənə də bir daş atırdı. Amma onun bir zadı yaxşı idi ki, qoymurdu dustağda ürəyimiz sıxılsın. Bizim üçün bir məşğuliyyət idi.

Alyoşun bir xasiyyəti var idi ki, səhər yerindən qalxan kimi əl-üzünü yuyub başlardı balaca bığlarını eşələməyə. Bığ da ki, nə bığ, elə bil ki, bir balaca siçan quyruğu. Bu bığları sayan olsaydı, hər tərəfdə yeddi-səkkiz tükdən artıq tapa bilməzdi... Alyoş bığlarını kişmiş ilə eşərdi və eşib ucların qabaq tərəfə çöndərərdi. Bir elə qəribə sifətə düşürdü ki, üzünə baxan gülməkdən özünü saxlaya bilməzdi. Xalq da buna güldükcə Alyoş şiddət edirdi. Əlləri həmişə bığında olardı. Biz ona deyəndə ki:

– A gədə, Alyoş, bu nə hərəkətdir ki, edirsən?

Qəhqəhə çəkib gülərdi və bizə belə cavab verərdi:

– Siz nə bilirsiniz, qardaşlar? Vaxt olar bilərsiniz ki, bu bığlar nə qayırır.

Doğru deyirmiş... Bir bax gör, ağrın alım, axırda nə oldu. Gün o gün oldu ki, bizi qaladan çıxarıb divana apardılar, orada bizi bir böyük otağa gətirib qara taxtanın üstə cərgə ilə oturtdular. O tərəf-bu tərəfimizə soldat düzdülər. Əllərində nizəli tüfənglər. Otaq adam ilə dolu idi. Tamam tamaşaya gəlmişdilər. Biz oturan taxtanın qabağında bir səki var idi. Səkinin də üstə stollar və kürsülər düzülmüşdü. Birdən qapı açıldı və içəri otaqdan səkiyə bir neçə yaranallar – boyunlarında qızıl zəncir çıxdılar. Bunlar çıxan kimi hamı ayağa qalxdı. Bizə də buyurdular, biz də durduq. Yaranallar əyləşdilər, bizi də oturtdular. Divan başlandı.

Hamıdan qabaq mənim adımı oxudular. Adımı çəkən kimi buyurdular ki, dur ayağa:

– Adın nədir?
– Həsən.
– Kim oğlu?
– Rüstəm oğlu.
– Neçə yaşın var?
– Otuz.
– Evlisən, subay?
– Evliyəm...

Və belə-belə suallardan mənə çox verib cavablarımı aldılar. Məndən sonra növbət ilə o biri yoldaşlarımı da danışdırdılar. Növbə çatdı Alyoşa. Adını eşidən kimi Alyoş irəli durdu və döşünü qabağa verib başladı siçanquyruğu bığlarını eşməyə.

– Adın nədir?
– Əli.
– Kim oğlu?
– Vəli.
– Evlisən, subay?
– Bir az evliyəm...

Alyoşun bu sözünə otaqda olanların hamısı gülüşdü. Yaranal qeyz ilə soruşdu:

– Yəni nə demək istəyirsən? Bir azacıq evli nə deməkdir?..

...Vəllər qoşuldu, uşaqlar mindilər vəllərə, Həsən dayı da şanasını alıb əlinə başladı heşanı çevirməyə...

Mən gördüm ki, mənim burda qalmağımın daha bir mənası yoxdur. Həsən dayı ilə xudafiz edib evimizə qayıtdım. Xırmandan bir az uzaqlaşmışdım, eşitdim ki, Həsən dayı holavar çəkib oxuyur. O oxuduğu bayatılarda o qədər hüzn var idi ki, mənim ürəyim yenə başladı sıxılmağa. Keçən günlərin zülmü o bayatıları irəklədirdi.

Keçən günlərimizə ağ demək olmaz. Həmişə qara olublar.

***"Eynəli bəy Sultanov: Hekayələr" kitabı***

## Cansağlığı və uzun ömür (balaca hekayə)

Yaz, isti bir axşam idi, 80 yaşında bir ixtiyar kəndli öz evinin qabağında oturmuşdu. Onun başı qar kimi ağ, əmma özü sağlam və şad idi.

Onun gözlərindəki ataş hələ sönməmişdi; əlləri isə hələ hər cür zəhmət üçün bacarıqlı idi. İxtiyardan bir az bəridə, onun nəvəsi və nəvə evladları dinc və şad oynamaqda idilər.

Şəhərdən kəndə gəlmiş bir cavan bu ixtiyar barəsində çox şeylər eşitmişdi, ixtiyara yanaşdı və onun bu qədər ixtiyar olmaqla bərabər, nə cür bu qədər dinc qala bilməsini soruşdu. İxtiyar kəndli cavab verdi:

– Öz çocukluğumdan başlayaraq hər gün səhər doğan Günəş bəni heç bir gün yatakda görməmişdir. Axşam olan kimi mən istirahət etməkdən ötəri həmən yatardım. Səhər tezdən qalxanda mən əsla əsnəməmişəm, bir dəfə olsun, tənbəlləşməmişəm. Zəhmət bədənimi və canımı sağaltmışdır. Mən həmişə şad olmuşam, çünki səfalət çəkməmişəm. Mən öz qüvvəm və əllərimə güvənmişəm və onlar əsla məni aldatmamışlardır…

Heyrət ilə ixtiyara qulaq asan cavan təkrar soruşdu:

– Yaxşı, böyük ata, bu şeyləri sənə kim öyrətmişdir?

İxtiyar dinmədi, ayağa qalxıb cavanın qolundan tutdu və onu öz evinin yanında olan bağçasına apardı; orada yetişmiş meyvələr ilə yüklü ağacların altında sıra ilə arı pətəkləri qoyulmuşdu. İxtiyar meyvə ağaclarını və arı pətəklərini cavana göstərərək dedi:

– İştə bunlar mənə ağıl verib, çalışmağı öyrətdilər. Bu ağacları özüm tikdim və saxladım. Onlar öz gözümün qabağında nəşv və numa etdilər və qəlbimi şadlıq ilə doldurdular. Mən bu ağacları öz evladlarım kimi sevdim və onlara məhəbbət bağladım. Onlar mənə öyrətdilər ki, zəhmət həmişə öz meyvəsini verir və zəhmətkeşi bolca mükafatlandırır.

Və balaca, zəki, çalışqan arılar isə mənə çalışqanlıq, əzm, səbat, nizam-intizam və qənaəti öyrətdilər. Bütün ömrümü zəhmət və fəaliyyət ilə keçirdim. Daima şad və məmnum oldum, naxoşluq və səfalətin nə olduğunu bilmədim. İştə sağlıq və dincliyimin sirləri!..

***Eynəli bəy SULTANOV,***
***"Qızıl Şəfəq" jurnalı. Tiflis. Dövlət nəşriyyatı. 1927, №6***

## Eynəli bəy Sultanov haqqında xatirələr

Eynəli Sultanovla məni yaxınlaşdıran Naxçıvan teatrosu səhnəsi olmuşdur. O, olduqca tərəqqipərvər bir şəxs idi. Dövrün xüsusiyyətləri ilə əlaqədar olan səhnə aləmində mövcud olan çətinliklərə qarşı o, yorulmadan çalışır və əmələ gələn çətinlikləri nəyin bahasına olur-olsun, aradan qaldırırdı. Özü hərçənd tündməcaz (nervinıy) idi, ancaq rəftarı olduqca gözəl idi. Biz həvəskar artistlər ondan çox şey öyrənər və buna görə də ona hörmət və məhəbbət edərdik. O, bizə həm rejissorluq, həm də artistlik edərdi. O dövrdə qadın paltarlarını kişilərə göstərmək günah, çirkin və yaramaz hesab olunduğundan çəkinməyərək öz qadınının paltarlarını geyib səhnədə "Dağılan tifaq"da Sona rolunu ifa etmişəm. Onun özünün iştirakı ilə "Tatarka", "Qırt-qırt", "Dağılan tifaq" tamaşasını göstərmişik. Verilən tamaşalardan hasil olunan pullar məktəblərdə təhsil alan kasıb uşaqların ehtiyacına sərf olunurdu.

***Əli SULTANOV,***
***"Atam və Eynəli Sultanov haqqında xatirələrim",***
***3 dekabr 1958-ci il***

Mən Hüseyn Ərəblinskinin rəhbərliyi ilə təşkil olunmuş və onun rejissorluğu ilə tamaşaya qoyulmuş "Gaveyi ahəngər" əsərində çıxış etdiyim gündən Eynəli Sultanovu daha yaxşı tanımağa başladım. O zaman Bakıda, bir sözlə, Azərbaycanda olduğu kimi, Tiflisdə də cavan aktyorları çıxılmaz vəziyyətdə qoyan azərbaycanlı qızının səhnədə iştirak etməməsi idi. Buna görə də biz qadın iştirak etməyən əsərləri tamaşaya qoymağa məcbur idik. Səhnəmizdə azərbaycanlı qızının olmaması çox çətinlikdən sonra senzordan icazə alıb, tamaşaya qoyduğumuz Azərbaycan həyatını əks etdirən əsərlərdə özünü daha çox hiss etdirirdi. Bu əsərlərdəki azərbaycanlı qadın rollarını rus aktrisaları ifa edirdilər. Tiflis səhnəsini bir müddət bu çətinlikdən qurtaran Eynəli Sultanov oldu. O, "Tiflis müsəlman dram cəmiyyəti"nin yeganə üzvü idi ki, ilk dəfə qadın rollarında çıxış etmiş, azərbaycanlı qızı Göyərçin xanımı da səhnəyə gətirmişdir.

1910-cu ilin 30 oktyabrında tamaşaya qoyulan "Dəmirçi Gavə" əsərində Xubçöhr rolunda Göyərçin xanım, Gavə rolunda isə Eynəli Sultanov məharətlə çıxış etmişdir.

Sonralar Göyərçin xanım teatrdan ayrıldı. O, 1914-cü ildə Tiflisə qastrola gəlmiş Mirzəağa Əliyevlə evlənmiş və səhnəni tərk edərək tibb işçisi olaraq çalışmağa başlamışdır. Buna baxmayaraq, bir müddət qadın rollarını yenə Eynəli Sultanov ifa etdi. O, N.B.Vəzirovun "Müsibəti-Fəxrəddin" əsərində Hürü nənə, "Hacı Qənbər" əsərində Dilbər xanım, Ə.B.Haqverdiyevin "Pəri-cadu" əsərində Şamama-Cadu və sairə rollarda çıxış etmişdir.

Eynəli Sultanovun qadın rollarında çıxış etməsi Şeytanbazarın fanatik müsəlmanları tərəfindən ləğa qoyulurdu.

Eynəli Sultanov isə bunlara fikir verməyərək deyirdi ki, zaman gələr, yazıq müsəlmanlar başa düşərlər ki, mənə yox, öz faciəli tarixlərinə gülürlərmiş.

***İbrahim İsfahanlı xatirəsi – (əlyazması),***
***Gürcüstan SSR Dövlət Teatr Muzeyi,***
***Azərbaycan teatr materialları, fond 13***

Maarifçi-demokrat Eynəli Sultanovu mən birinci dəfə öz küçəmizdə (Zaviyə məhəlləsində) görmüşəm. Payız fəsli idi. Anamla bacımgilə gedirdik. Küçədə bizdən çox aralı qəribə geyinmiş bir adam göründü. Həmin saat anam təsviyə düşüb "tez ol, dəli gəlir", – deyə məni Şirəli bəyin (rəssam Bəhruz Kəngərlinin atası) həyətinə çəkdi. Həyətdəki qadınla rastlaşıb: "Bağışla xanım, yolda yazıq Eynəli bəyi görüb qorxudan uşağı bura çəkdim", – deyə təsadüfən həyətə girməyinin səbəbini ona bildirdi. Bu da oxumağın bəlası. O qədər oxuyub ki, yazığın ağlı qaçıb. Özü öz əli ilə atadanqalma malını dağıdır.

***Həsən SƏFƏRLİ,***
***Naxçıvanın köhnə ziyalılarından,***
***Əməkdar müəllim,***
***1959-cu il***

# Eynəli bəy Sultanov yazırdı:

***Mənim xalqım! Səni azad insanlar içərisində azad, xoşbəxtlər içərisində xoşbəxt, maarifçilər arasında maarifçi görə biləcəyəmmi?***

***Mən inanıram: sənin irəliyə doğru hərəkətini ləngidən hər cür buxovlardan azad olacağın vaxt uzaq deyildir.***

***Bizim şəhər küçələrinin məsələsi yerli həyatın ən xəstə məsələsidir. Bizim şəhər idarəsi öz varlığının ikinci onilliyinə qədəm qoymasına baxmayaraq, indiyədək onun saldığı küçələrin heç biri başa çatdırılmamışdır.***

***Şəhərin tamamilə qaydaya salınmış bir küçəsi belə yoxdur. Hər yer zir-zibil içərisindədir, sanitariyaya əməl edilmir. Şəhər bağı özbaşına buraxılmış, ən yaxşı ağaclar kəsilmişdir. Bağ mal-qaraya otarılır. Onun hasarı yoxdur. Şəhərimizin yeganə bəzəyi olan bu bağ ömrünün son günlərini keçirir.***

***Şəhər təsərrüfatının qüsurları olduqca çoxdur... Həm də bu qüsurlar özünü elə açıq-aşkar büruzə verir ki, daha onların haqqında susmaq zənnimizcə cinayətdir...***

***Bu məqsədlə mən, hər şeydən əvvəl, bizim ictimai idarənin başında duran və onun tərkibinə daxil olan şəxsləri ictimaiyyətin mühakiməsinə çıxarır və onlara aşağıdakı sözlərlə müraciət edirəm:***

***Cənab himayədarlarımız! Təsərrüfatı bacarıqsızcasına, olduqca pis idarə etməklə, şəhərimizi nə vaxta qədər soyub-talamaq niyyətindəsiniz?***

***Mən ona görə bu sualı sizə təklif edirəm ki, hamımızda da olmasa, bir çoxlarımızda belə bir ciddi əmniyyət hasil olmuşdur ki, "siz şəhərdən ötrü deyil, şəhər sizdən ötrüdür".***

## Eynəli bəyə məktub...

Salam ustad! Sənə bu məktubu əsr yarım öncə dünyaya göz açdığın Naxçıvandan, bütün məramınla, bütün qəlbinlə, ruhunun bütün incə telləri ilə, bütün bəşəriyyəti sevdiyin qədər sevdiyin xalqının bir nümayəndəsi yazır. O xalqın nümayəndəsi ki, sən o xalqı insanlar içində azad, xoşbəxtlər içində xoşbəxt, maarifçilər arasında maarifçi görmək istəyirdin, inanırdın ki, bu xalq çox yaxında irəliyə doğru atdığı addımları ləngidən buxovlardan azad olacaq. O xalqın nümayəndəsi ki, sən bu xalq üçün bütün ömrünü şam kimi əritmişdin, mövhumatın, geriliyin, savadsızlığın yaratdığı qaranlığı işıqlandırmaq üçün gecəli-gündüzlü mübarizə aparmışdın, bu qaranlığı əbədi nur ilə əvəz etmək üçün özünü fəda etmişdin. Başqalarını öyrətməklə, özün də öyrənməyə davam etməklə, şərəflə yaşamaqla, xeyirxahlıq ideyalarını cəsarətlə və açıqdan-açığa ifadə etməklə, qaragüruh qarşısında cəsarətli duruşunla, həqiqətin bir gün qələbə çalacağına sonsuz inamınla, qeyri-bərabər mübarizədə məğlub olmaqdan qorxmamağınla sübuta yetirmişdin.

Naxçıvan şəhərinin sənin yaşadığın və gördüyün dövrü haqda böyük ürək yanğısıyla yazdığın anların, dəqiqələrin üzərindən çox illər ötüb keçib. İndi bu sətirləri yenidən oxuyanda bu şəhəri nə qədər çox sevdiyini hiss edib təsirlənməmək mümkün deyil. İstər-istəməz böyük təəssübkeşliklə yazılan bu yazıların hər sətrini oxuyanda ürəyimdə "Kaş ki" demişəm. Kaş ki, sən Naxçıvan şəhərinin bu gününü görəydin, dərdlərinə yandığın şəhərin necə böyük və gözəl bir şəhərə çevrildiyinin şahidi olardın. Görəydin ki, bu şəhər üçün qurduğun bütün xəyallar reallığa çevrilib, arzuların yerinə yetib. İndi Naxçıvan dünyanın ən gözəl, ən ürəkaçan, ən müasir şəhərlərindən biridir. Baharda bu şəhəri al-qırmızı qızılgüllər, qışda yamyaşıl küknarlar bəzəyir. Bağlar, parklar, xiyabanlar dünyanın dörd bir tərəfindən gətirilmiş gül-çiçəklərə qoynunda yer verib. Şəhərdə indi yamyaşıl uca çinarlar, sərv ağacları, qaraağaclar, şamlar insanlara bələdçilik edir, onların yoluna kölgə salır. Hər bir ağaca, torpağa salınan hər fidana yeni doğulan körpə kimi qayğı və nəvaziş göstərilir.

Bəli, ustad, dünya qoca dünyadır. Ancaq taleyindən nigaran qaldığın Naxçıvan şəhəri öz küçə və prospektləri, müasir binaları, bərpa edilən tarixi abidələri, hamar yolları ilə dünyanın ən gənc şəhərlərinə bənzəyir. Bəli, Naxçıvan qoca dünyanın cavan şəhəridir. Əsrlərin ağır yükündən qurtulan bu şəhəri indi gözəl binalar, evlər, bağ-bağçalar, şüşə kimi hamar yollar, körpülər bəzəyir.

Bu gün sənin xalqın insanlar içində azad, xoşbəxtlər içində xoşbəxt, maarifçilər arasında maarifçi xalqdır. Bu xalq öz azadlığına, müstəqilliyinə qovuşduqdan sonra ona mane olan bütün əngəlləri aşa bilib. Dövlət quruculuğunda, təhsildə, incəsənətdə, mədəniyyətdə böyük uğurlar qazanılıb.

Bil ki, Vətəninin, doğma şəhərinin bugünkü növrağı sənin kimi xalqın parlaq gələcəyi üçün böyük fədakarlıqlar edən insanların əməyinin nəticəsidir. Ruhun şad olsun, ustad!

✍ **Səbuhi HÜSEYNOV**

## Onun görmək istədiyi NAXÇIVAN



*Dövlət Bayrağı Meydanı*



*Naxçıvan şəhərindən görünüş*



*"Naxçıvan" Universiteti*



*Naxçıvan şəhərindən görünüş*



*Eynəli bəy Sultanov adına Naxçıvan şəhər 7 nömrəli tam orta məktəb*



*Naxçıvan Muxtar Respublika Xəstəxanası*



*Naxçıvan şəhərində körpü*

Göy qurşağı

"Şərq qapısı"nın ədəbiyyat əlavəsi

Redaksiya heyəti

Asim Yadigar, Hüseyn Həşimli, Əbülfəz Amanoğlu,
Xanəli Kərimli, Muxtar Qasımzadə, Əbülfəz Əzimli,
Elxan Yurdoğlu, Qafar Qərib

***Böyük İpək Yolunun üzərində yerləşən Naxçıvan qədim zamanlardan yerləşdiyi strateji mövqeyi, füsunkar təbiəti, tarixi və mədəni zənginliyi ilə diqqət mərkəzində olub. Azərbaycanın dövlətçilik tarixində mühüm rol oynayan bu diyar əsrlərboyu təkcə elm və mədəniyyətin inkişafındakı roluna görə deyil, həm də ənənələrinə, dəyərlərinə sadiqliyi ilə tanınıb.***

# NAXÇIVAN:

## *müqəddəsliyin və müqəddəslərin məkanı*

Tarixin qədim dövrlərindən burada yaşayan sakinlərin öz dəyərlərinə, ənənələrinə sadiqliyindən və onlar uğrunda sonadək mübarizə aparmaq xüsusiyyətindən irəli gəlir ki, Naxçıvan diyarı həm də dünyanın ən böyük və sonuncu dini sayılan İslamın çox dərin kök saldığı, ümumilikdə, İslam ideyalarının geniş yayıldığı ərazi olub. Məhz buna görədir ki, tarixi mənbələrdə İslam Peyğəmbərinin əmisi oğlu və kürəkəni Həzrəti Əlinin tərəfdarlarının sıx məskunlaşdığı məkanlardan biri kimi Naxçıvan da adı çəkilir. Ümumiyyətlə götürsək, Şərqdə müqəddəs məkanlar çoxdur. Hətta uzun müddət Qərb aləmində belə bir deyim mövcud idi ki, Şərqdə iki cür ölkələr var: neft ölkələri və müqəddəs ölkələr. Uca Yaradanın bir lütfüdür ki, ölkəmiz təbii sərvətləri ilə yanaşı, həm də müqəddəs məkanları ilə tanınır. Naxçıvan ərazisi isə digər bölgələrdən bu cür müqəddəs məkanlarının daha çox olması ilə seçilir. Digər tərəfdən isə Naxçıvan torpağı ona görə müqəddəs sayılır ki, təkallahlılıq dünyada ilk dəfə bu torpaqda yayılıb. Bu ərazi bəşəriyyətin ikinci yaradılış yeridir. Nuh Peyğəmbərin burada quruya çıxması və məzarının bu torpaqda olması hələ İslamdan xeyli əvvəl Naxçıvanın Ulu Yaradan tərəfindən Seçilmiş Yer olduğuna işarə edir. Bəlkə də buna görədir ki, Naxçıvanda qoca tarixin amansız dönəmlərində itib-batmayan, insanlığı əbədi olaraq saflığa, təmizliyə, halallığa dəvət edən çoxsaylı ziyarətgahlar var. Bəziləri üçün müqəddəs ocaq, bəziləri üçün mistika sayılsa da, keçmişdən bəri insanların bu torpaqdakı pirlərə, imamzadələrə, xanəgahlara, zaviyələrə üz tutmalarının əsl məqsədi Yaradandan kömək diləmək, Onun varlığına inanmaq, müşkül işlərin yoluna qoyulması üçün Ona dua etmək olub. Hazırda muxtar respublika ərazisində yerləşən tarixi-mədəniyyət abidələrindən 140-dan çoxunu ziyarətgahlar təşkil edir. Elə bu yazıda da həmin ziyarətgahlardan bir neçəsi haqqında bəhs edəcəyik.

Naxçıvandakı ziyarətgahlar içərisində Əshabi-Kəhf daha çox əhəmiyyəti ilə seçilir. Naxçıvan şəhərindən 12-13 kilometr uzaqlıqda yerləşən Əshabi-Kəhf barədə "Qurani-Kərim"in 18-ci surəsində bəhs edilir. Həmin surənin 17-ci ayəsində deyilir: "Baxsaydın, Günəşin mağaranın sağ tərəfindən doğub meyil etdiyini, sol tərəfdən onlara toxunmadan batdığını, onların da mağaranın genişcə bir yerində olduqlarını görərdin..." Mağaranın içərisinə girəcəkdən baxarkən (yəni girişdən sağ və sol nəzərdə tutulur), məhz Naxçıvandakı Əshabi-Kəhfdə içəri girən (baxan) adamın sağı (bu nisbətdə mağaranın sağ tərəfi) gündoğana düşür. "Əshabi-Kəhf" kimi tanınan mağaralar Kiçik Asiya və Fələstinin, Türkiyənin ərazisində də var. Lakin "Qurani-Kərim"də göstərilən bir çox məlumatlar, xalq arasında mövcud olan rəvayətlər və bəzi tarixi faktlar müqəddəs kitabda haqqında bəhs edilən yerin məhz Naxçıvandakı Əshabi-Kəhf olduğunu aydınlaşdırır. Burada coğrafi cəhət oxşarlığı xüsusilə diqqəti cəlb edir. Əshabi-Kəhf haqqında İslam aləmində mövcud olan bir hədis də ziyarətgahın Naxçıvan ərazisində olduğuna işarə verir. Hədisə görə, Ərəb Xilafətinin II xəlifəsi Ömərin dövründə 3 yəhudi gələrək xəlifəyə suallar verib, sualları isə xəlifənin əvəzindən Peyğəmbərin əmisi oğlu və sonralar xəlifə olmuş İmam Əli cavablandırıb. Yəhudi alimlərindən birinin sualı Əshabi-Kəhf və hökmdar zülmündən qaçan şəxslərin çıxdıqları dağla bağlı olur. Hədisdə yazılır: "Yəhudi alimi "Ey Əli, bu dağın və mağaranın adı



nədir?" – deyə soruşub. İmam Əli cavab verib: "Ey yəhudi qardaşım, dağın adı Nahacilus, mağaranın adı isə Vasid idi. Mağaranın yaxınlığında ağaclar və püskürərək axan su var". Göstərilən hədisdə gənclərin qalxdıqları dağ – "Nahacilus" adlandırılır. Məlumdur ki, yunan dilində xüsusi isimlərin adlıq halında "-us", "-is" şəkilçiləri işlədilir. O zaman Nahacilus sözündən adlıq hal şəkilçisini atanda qalan kök söz "Nahacil" və yaxud bu gün Əshabi-Kəhf yaxınlığındakı dağın adına uyğun olaraq desək, Nuhəcir – Nəhəcirdir. Əshabi-Kəhfdəki "Cənnət bağı" ağaclara işarədir. Vaxtaşırı püskürən bulaq isə bu gün də Əshabi-Kəhf ziyarətgahına gedərkən yolun sağ tərəfində qalan dərədədir. Əshabi-Kəhfdə ilk dəfə 1998-ci ildə ümummilli liderimiz Heydər Əliyevin tapşırığı ilə tikinti-abadlıq işləri aparılıb. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il avqustun 2-də qəbul etdiyi Qərara əsasən, bura ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələri siyahısına daxil edilib. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2006-cı il aprelin 17-də qəbul etdiyi Qərara əsasən isə "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi yaradılıb. 2006-cı ildə kompleksdə yenidən tikinti-abadlıq işləri görülüb. Burada inzibati binalar, mağazalar tikilib, ziyarətçilərin çətinliklə çıxdıqları "Damcıxana" və "Cənnət bağı"nadək pillələr qoyulub. Yaxınlıqdakı kəhrizdən nasos vasitəsilə ziyarətgaha içməli su xətti, 15 kilometr məsafədən elektrik xətti çəkilib. Təmizliyin təmin olunması üçün bütün işlər görülüb. Ziyarətgahın ətrafında 4 hektar sahədə bağ salınıb.

Son illərdə yerli və əcnəbi vətəndaşlar tərəfindən ən çox ziyarət edilən ünvanlardan biri də Nuh Peyğəmbərin Naxçıvan şəhərində yerləşən türbəsidir. Nuhun türbəsinin Naxçıvanda olması haqqında İ.Şopen, Dyubua-de Monpere, K.A.Nikitin, V.M.Sısoyev və digər tədqiqatçılar məlumat veriblər. K.A.Nikitinin "Naxçıvan şəhəri və Naxçıvan qəzası" adlı məqaləsində Həzrəti Nuh Peyğəmbərin buradakı məzarı və türbəsi aşağıdakı kimi təsvir olunub: "Nuhun qəbri Naxçıvan şəhərinin cənub tərəfində, qədim qalanın qalıqlarının yaxınlığında yerləşir. Məzarın hazırkı görkəmi 8-ci yüzillikdə bərpa edilmişdir. İndiki görkəmdə məzar yerdən qalxan, çox da böyük olmayan türbəni xatırladır. Əvvəlcə burada məbəd olmuş, sonra uçub dağılmışdır. Hazırkı türbə keçmiş məbədin aşağı mərtəbəsinin qalıqlarından ibarətdir. Məbədin pilləkənlərlə aşağı düşmək tələb olunan interyeri dairəvi, ortadan daş dirəklə möhkəmləndirilmiş, sərdabə tipindədir. Rəvayətə görə, həmin dirəyin altında Nuhun cənazəsi yerləşir. Sərdabədə obrazların və bəzəklərin təsviri yoxdur. Sərdabənin divarları ağardılmış, səyyahların və ibadətə gələn zəvvarların müxtəlif dillərdə olan adları ilə yazılıb doldurulmuşdur". V.M.Sısoyev əsərində "Nuhun türbəsi" haqqında məlumat verərkən sərdabənin tərəflərinin 2,5 metr olan səkkizguşəli prizma şəklində olduğunu qeyd edib. Azərbaycan realist rəssamlıq sənətinin banisi Bəhruz Kəngərli (1892-1922) XX əsrin əvvəllərində yağlı boya ilə Naxçıvan şəhərindəki Nuhun türbəsinin naturadan şəklini çəkib. Əsərdə Nuh Peyğəmbərin türbəsi ilə yanaşı, türbənin yerləşdiyi ərazi də təsvir edilib. XIX əsrin 80-ci illərində Naxçıvan şəhərində yaşayıb pedaqoji fəaliyyətlə məşğul olmuş rus maarifçisi K.A.Nikitin yerli əhalinin köməyi ilə Nuh Peyğəmbərin bu qədim diyarla əlaqəsinə dair rəvayətləri toplayıb yazıya alıb və onun buradakı məzarının yerini müəyyənləşdirib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Nuh Peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin bərpa edilməsi haqqında" 2006-cı il 28 iyun tarixli Sərəncamı əsasında 2007-2008-ci illərdə qədim abidə tarixi mənbələr nəzərə alınmaqla yenidən bərpa olunub, ərazidə geniş abadlıq və yenidənqurma işləri aparılıb. Burada bir amili də qeyd etmədən keçmək olmur. Təəssüf ki, Nuh Peyğəmbərlə bağlı Naxçıvanda çoxsaylı toponimlərin indiyədək yaşamasına, bu sahədə müxtəlif tədqiqatların elmi şəkildə araşdırılmasına və tarixi mənbələrə istinad edilərək nəticələrin təsdiq olunmasına baxmayaraq, hələ də bu dəyərli faktın varlığı ilə bağlı dünya tarixşünaslığı susmaq mövqeyini seçib. Hətta bəzi hallarda bunun əksini söyləyənlər də tapılır. Ancaq bu sadə həqiqəti anlamaq üçün heç də tarixçi olmaq lazım deyil. Yuxarıda adını çəkdiyimiz əcnəbi tədqiqatçılar vaxtilə əksər Şərq ölkələrini gəzib-dolaşıblar, müəyyən qeydlər toplayıblar və məntiqlə onların "Naxçıvan sevgisi" o qədər olmalı idi ki, bu faktları rəvayət şəklində olsa belə, başqa yerdə yox, məhz Naxçıvanda qələmə alsınlar. Digər tərəfdən istənilən rəvayət, əfsanə və yaxud deyim harada yaranırsa, mütləq orada bir bağlılıq olmalıdır. Deyək ki, Nuhla bağlı hər hansı bir rəvayəti və ya əfsanəni yerli xalq özündən uydurub. Bəs necə olur ki, oxuma-yazmanın çox zəif olduğu cahillik dövründə yerli xalq Naxçıvanqala ərazisindəki məzarı Nuh Peyğəmbərlə bağlayır? Axı İslam dininin geniş yayılmağa başladığı orta əsrlər dövründən yerli sakinlər daha çox bu dinin müqəddəs üzvlərinə yönəlik rəvayətlərə meyilli olmalı idilər, nəinki ondan xeyli əvvəl mövcud olmuş Nuh Peyğəmbərlə bağlı deyimlərə. Nəhayət, bu gerçəyi qəbul etməyin vaxtı çoxdan çatıb ki, bədxah qonşularımız olan ermənilər tarixboyu bütün iddialarında yalnız Azərbaycana aid olan faktları mənimsəməyə səy göstəriblər, eynilə də Nuhla bağlı iddialara. Əminliklə demək mümkündür ki, əgər Nuh Peyğəmbərlə bağlı hadisələr başqa bir Şərq ölkəsində baş versəydi, ermənilərin buna heç bir iddiası olmayacaqdı.



Qeyd edək ki, muxtar respublika ərazisində keçmiş zamanlardan bu günümüzədək ziyarət edilən ünvanlar içərisində imamzadələrin də özünəməxsus yeri var. İmam ailələrinə aid qəbirlər üzərində tikilmiş türbələr – imamzadələr eyni zamanda tarixi-mədəniyyət abidələri kimi dəyərlidir. Məlumat üçün bildirək ki, İslam dünyasında Məhəmməd Peyğəmbərdən sonra dini rəhbər funksiyalarını yerinə yetirən və məhz bu müqəddəs şəxsiyyətin nəslindən olan şəxslər İmam adlandırılıblar. Tarixdən məlumdur ki, şiə imamları Abbasi xəlifələri tərəfindən daim təqib olunub, bu səbəbdən də onların övladları təqibdən yaxa qurtarmaq üçün müxtəlif ölkələrə, eləcə də Azərbaycana pənah gətiriblər. Azərbaycanda Səfəvi dövlətini yaradan Qızılbaş şeyxləri və onların davamçıları şiəlik məzhəbini daha da yaymaq və bu məzhəbin nüfuz dairəsini genişləndirmək üçün şiə imamları ilə bağlı olan ziyarətgahlara diqqətlə yanaşaraq bu qəbirlər üzərində türbələr inşa etdiriblər. Təsadüfi deyildir ki, Naxçıvan şəhərində, Babək rayonunun Nehrəm kəndində və Şərur rayonunun Xanlıqlar (Parçı) kəndindəki imamzadələr Səfəvilər dövründə inşa edilib. Məsələn, Şərur rayonunun Xanlıqlar kəndində yerləşən İmamzadə yeddinci İmam Musa Kazımın oğlu Şahzadə İbrahimin məzarı üzərində tikilib, uzun illər ziyarətgah və inanc yeri olub. Bu İmamzadə "Parçı İmamzadəsi" adı ilə də məşhurdur. Bu dini-tarixi abidə bərpa olunaraq cari ilin əvvəlində ziyarətçilərin istifadəsinə verilib.

Naxçıvan şəhərindəki İmamzadə türbəsinin içərisində də əhali tərəfindən ziyarət edilən bir qəbir vardır. "Naxçıvan Abidələri Ensiklopediyası"nda bu türbə haqqında məlumat verilir. Qeyd olunur ki, qəbrin üzərində kitabə olmadığı üçün onun kimə aid olduğu haqqında dəqiq fikir söyləmək çətindir. Ancaq yaşlı əhalinin dediyinə görə, bu qəbirdə şiələrin səkkizinci İmamı olan İmam Rzanın oğlu dəfn edilib. Epiqrafalim İ.Əzimbəyovun keçən yüzilliyin iyirminci illərində yazdığına görə, türbənin şimal-qərb tərəfində ərəb dilində yazılmış kitabə olub. Kitabənin mətnindən məlum olur ki, bu imarətin bina edilməsini böyük sultan, xaqan, hörmətli əmir sultan Əbu Müzəffər şah Təhmasib Bahadır xanın hakimiyyəti zamanında mərhum, günahları bağışlanmış, Hacı Fulad bəyin oğlu, zəmanənin xeyirxahı həzrət Rufai bəy əmr edib. Kitabədə tarix qeyd olunmasa da, orada vurğulanan "Əbu Müzəffər şah Təhmasib Bahadır xanın hakimiyyəti zamanında" sözlərinə əsasən türbənin inşa tarixini müəyyənləşdirmək mümkündür. Belə ki, Əbu Müzəffər şah Təhmasib Bahadır xan Səfəvi hökmdarı şah Sultan Hüseynin oğludur. Tarixdə II şah Təhmasib adı ilə tanınan bu adam 1722-32-ci illərdə hakimiyyətdə olduğundan, türbənin XVIII əsrin 20-ci illərində inşa etdirildiyi güman olunur.

İmamzadə türbələrindən biri də Babək rayonunun Nehrəm kəndində yerləşən XVIII əsrə aid memarlıq abidəsidir. Türbə bir çox dəyişikliklərdən, təmir və bərpa işlərindən sonra dövrümüzədək gəlib çatıb. Nehrəm İmamzadəsi türbə, təkyə və yardımçı binalardan ibarət böyük kompleksdir. Kompleksin özəyini təşkil edən türbənin içərisində ziyarət obyekti olan bir qəbir var. Qəbrin üstü sənduqə formasındadır. Qəbrin üzərində onun kimə aid olmasını bildirən kitabə yoxdur. Əhali arasında yayılan rəvayətə görə, qəbirdə şiələrin yeddinci İmamı Musa Kazımın oğlu Seyid Əqil dəfn olunub.



Əvvəldə də qeyd etdiyimiz kimi, muxtar respublika ərazisində çoxsaylı türbə və xanəgahlar, pirlər, zaviyələr mövcuddur. Onların hər biri haqqında söhbət açmaq imkanı olmadığından ümumi məlumatlarla kifayətlənməli olacağıq. Onu xatırlatmaq lazımdır ki, Naxçıvan orta əsrlər dövründə, həm də elm və mədəniyyətin, idarəçilik ənənələrinin, türk-müsəlman varlığını nümayiş etdirən sufi mərkəzlərinin geniş yayıldığı məkanlardan olub. Əlincəçay, Pir Xamuş (Pir Qəmiş), Pir Yaqub, Xudu-Divanə, Şeyx Əbu Səid, Pir Eyvaz, Baba Yaqub, Xanağa, Piri-Süleyman, Piri Baba xanəgahları, İsfəndiyar zaviyəsi, Vənəndçay vadisindəki sufiliklə bağlı mərkəzlər məhz belə məkanlardandır. AMEA-nın müxbir üzvü, professor Fəxrəddin Səfərlinin "Naxçıvanda sufiliklə bağlı mərkəzlər" kitabında bu haqda geniş məlumatlar verilir. Eyni zamanda qeyd edək ki, Naxçıvan ərazisində çoxsaylı pirlər yerləşir. Ağzırət piri, Asnı piri, Aşağı Buzqov piri, Aza piri, Ərəfsə piri, Ərməmməd piri, Havuş piri, İmminin ocağı, İnan ocağı, İydəli piri, Kilit piri, Qaş piri, Qərib piri, Malik İbrahim piri, Miranşah piri, Seyid Sultan Səfi piri, Üstüpü piri və adını sadalamadığımız onlarla bu cür pirlərə muxtar respublikanın əksər bölgələrində rast gəlmək mümkündür. Yaşı əsrlərlə ölçülən bu pirlər indi də yerli əhalinin üz tutduğu, ziyarət etdiyi ocaqlardan sayılır.

*Fikirlərimizi ümumiləşdirərək deyə bilərik ki, insanlığın yenidən yaradılışına şahidlik edən, Peyğəmbər ayağı toxunan Naxçıvan diyarı tarixin ən qədim çağlarından burada yaşayan insanların həyat tərzinin, ibtidai mədəniyyətinin, inanclarının formalaşdığı ilkin yaşayış məskənlərindəndir. Köksündə saysız-hesabsız pirləri, xanəgah və imamzadələri yaşadan bu torpaq demək ki, ilahi enerjidən qidalanır. Bəlkə də buna görədir ki, kosmonavt Leonovun etiraf etdiyi kimi "Yer kürəsi kosmosdan baxanda Naxçıvanın rəngində görünür..."*

**Səbuhi HƏSƏNOV**

*Yurdumuzun nemətləri*

# Kələm qiymətli ərzaq məhsuludur

## *Üstüpülülər bu məhsulun yetişdirilməsində zəngin təcrübəyə malikdirlər*



Bu günlərdə bazarda iki qadının söhbətinə istər-istəməz qulaq kəsildim. Qadınlar kələm satıcılarından məhsulu haradan gətirdiklərini soruşdular. Sonra biri dönüb yanındakı qadına: – Görəsən, Naxçıvanda təkcə Üstüpüdə kələm əkilir? – deyə sualqarışıq təəccübünü bildirdi və əlavə etdi: – Çox şükür, bu gün Naxçıvanın hər yerində yaxşı əkin-biçin aparılır. Görürsən, bazarlarımız necə bolluqdur?! Yadında deyil, 15-20 il əvvəl bostan-tərəvəz məhsulları da sanki göyə çəkilmişdi. Amma indi hətta yol kənarlarında belə, bostan-tərəvəz məhsulları yan-yana düzülüb.

– Bilirəm. Kənd adamına göstərilən qayğının nəticəsidir ki, süfrələrimizdə bolluqdur. Daha başqa yerlərdən gələn məhsullara ehtiyacımız qalmayıb.

Həmsöhbəti onu tələsdirdi:

– Yəqin ki, Üstüpüdə kələm daha yaxşı məhsul verir, ona görə çox əkirlər. İnsafən də çox dadlı məhsuldur. Görürsən, alıcısı çoxdur. Gəl, tez ol, biz də alaq, qurtarar qışda turşusuz qalarıq, – deyə zarafatından da qalmadı.

Və bu məni payız fəslinin bol məhsulu olan kələm haqqında yazı hazırlamağa sövq etdi.

Sözsüz ki, payız fəslində bazarlarda ən çox satılan tərəvəz məhsullarından biri də kələmdir və bunlar arasında Ordubad rayonunun Üstüpü kəndində yetişdirilən kələm daha çoxdur. Şahidi olduğum söhbət əsasında görəsən niyə, – deyə öz-özümə verdiyim sualın cavabını isə elə üstüpülülərin özlərindən almamış düşündüm ki, ata-babalarımızın əkib-becərdikləri elə məhsullar var ki, bunlar diyarımızın müxtəlif ərazilərində daha çox məhsul verir, dadı-tamı ilə fərqlənir. Bəzi meyvə və tərəvəzlər muxtar respublikanın şəhər və kəndlərinin emblеminə çevrilib artıq. Naxçıvan göycəsi, Ordubad limonu, əriyi, Kükü alması, Şahtaxtı qovunu, Nehrəm qarpızı, Zeynəddin çiyələyi, Bənəniyar üzümü, Şıxmahmud sarımsağı ilə alıcılara çoxdan tanışdır. Üstüpü kəndi kələmi ilə muxtar respublika bazarında özünə daha geniş yer tutub. Bu yazımızda Üstüpü kələmi haqqında daha geniş məlumat verməyi qarşımıza məqsəd qoymuşuq.

Muxtar respublika ərazisinin iqlim şəraiti, təmiz dağ suları, münbit torpağı, günəşli havası regionumuzda kənd təsərrüfatının inkişafı üçün başlıca amillərdir. Dövlət tərəfindən də kəndliyə hər cür şərait yaradılıb, qayğı göstərilir. Qalır torpağa bağlılıq ki, bu da qədim diyarımızın sakinlərinin qanına hopub. Elə üstüpülülər də torpağına bağlı, yurdunu sevən insanlardır. Rayon mərkəzindən 36 kilometr məsafədə yerləşən kəndin torpaq sahələrindən səmərəli istifadə olunması da zəhmətsevərliyin nümunəsi kimi təqdir olunur. Və bu torpaqlarda daha çox kələm əkininə üstünlük verilir.

Kənd sakini, ixtisasca aqronom olan Bilal Cəfərov bizimlə söhbətində bildirdi ki, Üstüpü kəndi qədim olduğu kimi, burada kələm əkini də qədimdən ata-baba məşğuliyyəti kimi sevilib. Biz gözümüzü açıb kəndimizdə əkin sahələrində kələm görmüşük. Babalarımız da danışırlar ki, onların bu kənddə kələmin nə vaxtdan əkilməyi haqda məlumatları yoxdur. Sovet dövründə kolxoz sahələrində də kələm əkilib-becərilirdi. Düzdür, onda kəndli əkdiyinə, becərdiyinə sahib deyildi. Amma bu gün nə əkiriksə, xeyrini də özümüz görürük. Odur ki, üstüpülülər torpaqları həvəslə əkib-becərir, yaxşı da qazanırlar.

Kələm sərin havanı sevir. Bu kənddə əkilən kələmin becərilməsində heç bir dərman preparatından istifadə olunmur. Yalnız sahələrə üzvi gübrələr verilir. Su da ki, boldur. Kələm çox xeyirli sahədir. Bir hektar sahədən 130 sentner məhsul götürmək olur.

3,5 hektar ərazidə sözügedən sahənin əkini ilə məşğul olan Azər Abdullayev dedi ki, ağlım kəsəndən torpaqlarımızda kələm becərildiyini görmüşəm. Sahələrdə kələmin amaqer, belaruska, daşkənd-10, çernobıl və həmçinin dədə-baba sortları əkilir. Həmsöhbətim kələm toxumunun yetişdirilməsindən də danışaraq bildirdi ki, sahədən 10-15 kiloqramlıq kələmlər götürülür, sərin yerə qoyulur. Yaza qədər qalır. Bəzən kələm hissəsini kəsib gövdəsini saxlayırıq.Yazda gövdənin pöhrələr verdiyini görürük. Bu gövdələri aprel ayının əvvəlində sahələrdə əkib- becərirk. Onlar çiçək açır və toxum əmələ gəlir. Toxumu yığır və növbəti ildə həmin toxumdan istifadə edirik. Kələm az xərc aparan və çox gəlir gətirən sahədir. Belə ki, bir xörək qaşığı toxumdan 1500-dək şitil alınır. Kələmin növündən asılı olaraq bəzən 2 qaşıq toxum 2 hektar sahəyə əkilir. Payızda yığılıb evlərin zirzəmilərində sərin yerdə saxlanan kələmlər mart ayının axırınacan təzə-tər qalır. Əsasən də bərk kələmlər. Çünki yarpaq sıx olduğundan ona hava keçmir. Odur ki, xarab olmur.

Bu qədim əkinçilik ənənələrini yaşadan kənd sakinləri Hümbət Bayramov, Hikmət Orucov, İntiqam Hüseynov, Hüseyn Babayev də muxtar respublikada aqrar islahatın bəhrələrindən danışdılar. Bildirdilər ki, bir vaxtlar əkinçi bazarlara yaxın düşə bilmirdi. Əziyyətlə hasilə gətirdiyi məhsulu elə bazarların girişindəcə orda daimi oturan satıcılara verir, cüzi qazancla geri dönürdü. İndi isə torpaq mülkiyyətçilərinin zəhməti dəyərləndirilərək Naxçıvan şəhərində kənd təsərrüfatı məhsullarının satış-yarmarkaları təşkil olunur. Hər bir kənd adamı əziyyətlə hasilə gətirdiyi məhsulu şənbə-bazar günləri bu yarmarkaya çıxarıb rahat şəkildə sata bilir. Nə yerpulu istəyən var, nə də çəkil o yana deyən.

Gənc əkinçi Elvin Nəcəfov da onun sözünü təsdiqlədi: – Bir hektar sahədə kələm əkmişəm, yaxşı da məhsul götürmüşəm. Hər həftə yarmarkaya çıxardığım məhsuldan xeyli qazanc əldə edirəm.

Kələmin faydaları çoxdur. Alimlər müəyyən ediblər ki, kələmin tərkibində zəngin olan C vitamini immun sisteminə müsbət təsir edir, iştahanı artırır. C vitamini həmçinin təbii antioksidantdır. O, orqanizmdə gedən qocalma prosesləri ilə mübarizə aparır. Bundan əlavə, kələmdə nadir U vitamini də var. Bu möcüzəli vitamin selikli qişalarda olan zədələnmələri bərpa edir. Məhz bu səbəbdən kələm və kələm şirəsi mədə xəstəlikləri, onikibarmaq bağırsağın xorası və eroziyaları olan insanlar üçün çox xeyirlidir.

Kələm həmçinin K, PP, B qrupu vitaminlər və kalsium, kalium, dəmir, sink, fosfor, yod kimi mineral maddələrlə zəngindir. Kələm bağırsaqların fəaliyyətini yaxşılaşdırır və stimullaşdırır, orqanizmi toksinlər və digər ziyanlı maddələrdən təmizləyir, dövrün ən böyük problemi sayılan arıqlamağa kömək edir. Kələm yodla xüsusilə zəngindir. Bu mikroelement beyinin və qalxanvarı vəzin normal fəaliyyəti üçün olduqca vacibdir. Kələmdən müxtəlif dəri xəstəlikləri zamanı da istifadə oluna bilər.

*Bəli, səfalı bir guşədə, dağlar qoynunda yerləşən dilbər guşəmiz Üstüpü kəndinin sakinləri bərəkətli torpaqlarını əkib-becərir, dədə-baba məşğuliyyətlərini yaşadır, aqrar sahəyə göstərilən böyük qayğıdan bəhrələnərək kənd təsərrüfatı məhsullarının bolluğunun yaradılmasına töhfələrini verirlər. Bununla onların məşğulluğu təmin olunur. Belə ki, bu gün üstüpülülər torpaqlarını daimi iş yerlərinə çeviriblər.*

✍ **Hafizə ƏLİYEVA**

*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Futbol Federasiyasının birgə təşkil etdiyi futbol üzrə XV muxtar respublika çempionatında ilk dövrəyə yekun vurulub.*

# Futbol üzrə muxtar respublika çempionatında ilk dövrə başa çatıb



10 komandanın dairəvi sistem üzrə mübarizə apardığı çempionatın ilk dövrəsi 9 turdan ibarət olub. Komandaların qış fasiləsinə yollandığı dövrəni lider kimi "Araz-Naxçıvan" komandası başa vurub. Cari mövsümə də iddialı başlayan son iki mövsümün çempionu 9 oyunda maksimum xal toplayıb və ən yaxın izləyicisini 6 xal qabaqlayıb. "Qırmızı-ağlar" cari ildə ən çətin oyunlarını səfərdə keçirib. Belə ki, 4-cü və 5-ci turda müvafiq olaraq "Arpaçay"la Naxçıvan Dövlət Universitetinin (NDU) komandasının qonağı olan "Araz-Naxçıvan" rəqiblərini bir top fərqi ilə üstələyib (3:2, 2:1).

Hər mövsüm çempionatı qazanmağa iddialı olan "DİN-Darıdağ" futbol komandası isə ilk dövrəni ikinci pillədə başa vurub. Mövsümün açılış oyununda "Araz-Naxçıvan"a quru hesabla (0:3) məğlub olan "DİN-Darıdağ" daha bir məğlubiyyəti "Arpaçay"la görüşdə alıb (1:2). Maraqlısı odur ki, hər iki görüşdə onlar doğma arenada bu vəziyyətlə üzləşiblər. Cari mövsümdə sürpriz nəticələrə imza atan komanda isə "Batabat"dır. Şahbuz təmsilçisi ilk dövrədə 3 məğlubiyyətlə barışmalı olub və digər oyunlarda meydanı 3 xalla tərk edib. Şahbuzlular həmçinin ilk dövrədə gözlənilmədən "Sədərək" komandasına məğlub olmaqla hamını təəccübləndiriblər.

Turnir cədvəlinin 4 və 5-ci pillələrində qərarlaşan "Arpaçay"la Naxçıvan Dövlət Universitetinin komandasının hər birinin 16 xalı var. Ümumiyyətlə, şərurlular cari mövsümdə uğurlu çıxış etdiyini deyə bilərik. Onların "Batabat"la "Araz-Naxçıvan"a məğlub olmaları diqqət çəkməsə də, "Kəngərli" komandasına uduzması (3:5) böyük ajiotaj yaratdı. Bu mövsüm Kəngərli təmsilçisinin oyununu xüsusi vurğulamaq lazımdır. Rəqiblərindən istər səfərdə, istərsə də doğma meydanda üstün olan "Kəngərli" komandası ilk dövrəni 6-cı pillədə başa vurub. Kəngərli futbolçuları eyni zamanda ilk dövrədə qapısından ən çox qol buraxan komandadır – 28 qol. Naxçıvan Dövlət Universitetinin komandası isə cari ildə qeyri-sabit oyun sərgiləyir. Tələbələr turnir cədvəlinin ilk 3 pilləsində qərarlaşan komandaların hamısına məğlub olublar.

Son pillələrdə özlərinə yer tapan komandaların xalları eynidir – 5 xal. "Dübəndi", "Babək" və "Sədərək" komandalarının eyni xalının olmasına baxmayaraq, onların turnir cədvəlindəki mövqeləri aralarındakı oyunlara görə təyin edilib.

İlk dövrəyə nəzər yetirərkən ən kobud komandanın "Əlincə" olduğu görünür. Culfalı futbolçular keçirdikləri 9 oyunda 14 sarı, 3 qırmızı vərəqə ilə cəzalandırılıblar. Bu göstəriciyə görə, "Kəngərli" 7 sarı, 3 qırmızı ilə ikinci, "DİN-Darıdağ" isə 8 sarı, 2 qırmızı ilə üçüncüdür. "Babək" və "Batabat" komandaları da aqressiv oyunları ilə seçiliblər – 14 və 11 sarı. İlk dövrədə "feyr-pley" qaydalarına əməl edən komanda isə "Araz-Naxçıvan"dır – 7 sarı.

Bombardirlər siyahısına gəlincə, "Arpaçay" komandasının hücumçusu Hüseyn Əliyev və "Batabat" komandasının futbolçusu Samir Kərimov hərəyə 12 qolla ilk pillədə qərarlaşıblar. Onları 11 qolla "Araz-Naxçıvan"ın hücumçusu Tağı Seyidov izləyir.

| S | Komandalar | O | Q | H | M | T/F | X |
|---|---|---|---|---|---|---|---|
| 1. | "Araz-Naxçıvan" | 9 | 9 | 0 | 0 | 36-7 | 27 |
| 2. | "DİN-Darıdağ" | 9 | 7 | 0 | 2 | 29-14 | 21 |
| 3. | "Batabat" | 9 | 6 | 0 | 3 | 23-16 | 18 |
| 4. | "Arpaçay" | 9 | 5 | 1 | 3 | 25-18 | 16 |
| 5. | "NDU" | 9 | 5 | 1 | 3 | 13-8 | 16 |
| 6. | "Kəngərli" | 9 | 3 | 2 | 4 | 20-28 | 11 |
| 7. | "Əlincə" | 9 | 2 | 0 | 7 | 11-25 | 6 |
| 8. | "Dübəndi" | 9 | 1 | 2 | 6 | 10-25 | 5 |
| 9. | "Babək" | 9 | 1 | 2 | 6 | 5-21 | 5 |
| 10. | "Sədərək" | 9 | 1 | 2 | 6 | 11-21 | 5 |

# Sərbəst güləş üzrə rayon birinciliyinə yekun vurulub



***Babək rayonunun Zeynəddin kənd tam orta məktəbinin idman zalında sərbəst güləş üzrə rayon birinciliyi keçirilib.***

Babək Rayon Uşaq-gənclər idman məktəbi ilə Təhsil Şöbəsinin birgə təşkil etdiyi birincilikdə 40-a yaxın güləşçi mübarizə aparıb. Yarış komanda xarakterli olub.

Yarışdan öncə çıxış edən rayon Təhsil Şöbəsinin əməkdaşı Müslüm Vəliyev, Uşaq-gənclər idman məktəbinin direktoru Emin Hüseynov və baş hakim İlyas Həsənov yarışın qaydaları barəsində idmançılara məlumat veriblər.

Sərbəst güləş növünün kütləviliyini artırmaq, şagirdlərin fiziki sağlamlığını təmin etmək məqsədilə keçirilən birincilikdə komandalar 10 çəki dərəcəsində (32, 35, 42, 46, 54, 58, 63, 69, 76, 85 kiloqram) mübarizə aparıblar. Birinciliyin yekun nəticəsinə əsasən, Zeynəddin kəndinin güləş komandası qalib adını qazanıb. Digər iki pillədə isə Cəhri və Şıxmahmud kəndlərinin komandaları qərarlaşıblar.

Sonda qalib komandalara diplom və hədiyyələr təqdim olunub.

✍ **Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Naxçıvan şəhəri, Şadlinski küçəsi, bina 1, mənzil 40-da yaşayan Allahyarov Hidayət İslam oğlunun adına olan 7040 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

* * *

Tağıyev Hüseyn Məmmədqulu oğlunun adına verilmiş AB-621504 seriya nömrəli sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Səbuhi Həsənov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1050. Sifariş № 921